Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

14
FEVRAL
2020-ci il

№ 27 (4158)

Qiymәti
40 qәpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTAN ORDUSUNDA QEYRİ-DÖYÜŞ ÖLÜMLƏRİ VƏ İNTİHARLAR ÖLKƏ MEDİASININ BİR SAYLI MÖVZUSU OLDU - «MƏZUNİYYƏTDƏN QAYITDINSA, NƏSƏ VERMƏLİSƏN»...

səh. 8

Prezidentin Kürdəmirdəki maraqlı bəyanatları ekspert müzakirələrində... səh. 3

Yeni Qarabağ savaşında Azərbaycan Ordusunun qabağına qarşı tərəfdən çıxmağa adam tapılmayacaq səh. 9

YAP-dan olan millət vəkillərinin açıq sosial şəbəkə səhifələri saxlamaq problemi... səh. 5

9 fevral seçkilərindən sonra Avroparlamentdə Azərbaycana düşmən qüvvələr daha çox yer alır... səh. 2

Azərbaycanlıların öz yurdlarından ermənilər tərəfindən zorakı deportasiya tarixləri... səh. 10

Ermənistanda orta əsrlər diktaturasının qurulmasına rəsmən start verildi səh. 12

Problemlər məngənəsində olan məkan - Lerikin Vov kəndi... səh. 15



səh. 4-5

## Prezidentin seçki barədə Kürdəmirdə ən yeni bəyanatının real nəticəsi - saxtakar dairələrdə nəticələr bir-bir ləğv olunmağa başladı

*MSK-nın nəticələrini ləğv etdiyi dairələrin sayı dördə çatdı*



«Qaz OPEC»i çərçivəsində dünya qiymətlərinin tənzimlənməsində də Azərbaycan önəmli mövqeyə keçir səh. 11

Ermənistan XİN Avropa Məhkəməsinin adından Azərbaycana təzə böhtan atdı - Məhkəmənin susması siyasi rüsvayçılıq olacaq səh. 7



Rusiya səfirinin jesti və ermənilərin üzə çıxan sifəti - Qriboyedovun ruhuna minnətdar olmalı ikən ona hörmətsizlik etdilər səh. 7

səh. 2
”ASAN xidmət”in milli qürur verən məqamları...



səh. 6
9 fevral seçkisinin daha bir strateji önəmi - Rusiya XİN məxsusi bəyanat yaydı...



səh. 3
Polisin seçkidə zəruri rolunu hədəfə alanların son məqsədi...



səh. 6
Bəzi saxtakar müəllimlərə görə bütün müəllimlər ordusunu təhqir etmək doğrudurmu...



səh. 13
Azərbaycanda cərimәsini ödəməyən xaricilərə də sanksiya tətbiq olundu



## Prezident İlham Əliyev milli komandamızı təbrik etdi

**Prezident İlham Əliyev Azərbaycanın Güləş üzrə Milli komandasını qələbə münasibətilə özünün "Twitter" sosial şəbəkəsindəki səhifəsində təbrik edib.**

"Trend"-in məlumatına görə, Prezident yazıb:"Avropa çempionatında yunan-Roma güləşi üzrə tarixdə ilk dəfə 6 medal qazanan milli komandamızın möhtəşəm qələbəsi münasibətilə idmançılarımızı, məşqçilərimizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm".

Xatırladaq ki, İtaliyanın paytaxtı Romada keçirilən Avropa çempionatında yunan-Roma güləşi üzrə yarış başa çatıb. Millimiz tarixində ilk dəfə Avropa çempionatında rekord sayda - 6 medal qazanıb. Belə ki, Sənan Süleymanov (77 kq) və Rafiq Hüseynov (82 kq) bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Eldəniz Əzizli (55 kq), Murad Bazarov (60 kq), Ülvi Qənizadə (72 kq) və İslam Abbasov (87 kq) isə üçüncü yeri tutub.

## Birinci vitse-prezident Mehriban Əliyeva yunan-Roma güləşi üzrə milli komandanın üzvlərini təbrik edib



**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində İtaliyanın paytaxtı Romadakı Avropa çempionatında 2 qızıl, 4 bürünc medal qazanan yunan-Roma güləşi üzrə milli komandanın üzvlərini təbrik edib.**

"Trend"-in məlumatına görə, təbriklə bağlı edilən paylaşımda deyilir:

"İdman sahəsində növbəti böyük uğurumuz! İtaliyanın paytaxtı Romada keçirilən Avropa çempionatında yunan-Roma güləşi üzrə Azərbaycan millisi tarixində ilk dəfə 6 medal qazanaraq komanda hesabında ikinci yerdə qərarlaşıb. Bu möhtəşəm qələbə sevincini Azərbaycan xalqına yaşadan idmançılarımızı - qızıl medal sahibləri Sənan Süleymanovu və Rafiq Hüseynovu, bürünc medal sahibləri Eldəniz Əzizlini, Murad Bazarovu, Ülvi Qənizadəni və İslam Abbasovu və onların məşqçilərini səmimi-qəlbdən təbrik edir, onlara yeni-yeni nailiyyət və qələbələr arzulayıram!

# Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev fevralın 13-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi müzakirə edilib, Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətinə toxunulub, bu yaxınlarda Bakıda keçiriləcək "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının növbəti toplantısında Avropa İttifaqının yüksək səviyyədə iştirak etmək niyyətində olmasının önəmi vurğulanıb və əlaqələrimizin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



# 9 fevral seçkilərindən sonra Avroparlamentdə Azərbaycana düşmən qüvvələr daha çox yer alır...

**Təəssüflə qeyd etmək istərdim ki, son seçkilərdən sonra Avropa Parlamentində (AP) bəzi radikal, şovinist və islamofob təfəkkürlü qüvvələr yer alıb.**

AP-ın Sosialistlər və Demokratlar Qrupu artıq ikinci dəfədir ki, Azərbaycanla bağlı əsassız bəyanatla çıxış edir. "Trend"-in məlumatına görə, bunu Azərbaycan Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa Parlamentinin Sosialistlər və Demokratlar Qrupunun Azərbaycan fundamental insan hüquqlarına riayət etməyənə qədər Avropa İttifaqı (Aİ) ilə yeni saziş ratifikasiya olunmayacağı bağlı bəyanatı şərh edərkən deyib.



H.Hacıyev bildirib: "Birincisi, Aİ ilə saziş hələ heç imzalanmamışdır. İkincisi, bir müddət öncə AP Azərbaycanda parlament seçkilərini müşahidə etməyəcəyini bildirmişdi. Açığı, onların bu açıqlaması bizdə təəccüb doğurdu. Azərbaycanın AP qarşısında hər hansı bir öhdəliyi yoxdur və biz heç AP-a seçkiləri müşahidə etmək üçün dəvət də ünvanlamamışdıq. Aİ 9 fevral parlament seçkilərindən sonra verdiyi açıqlamada Azərbaycanla dialoqu davam etdirməyə və ölkəmizlə sıx işləməyə hazır olduğunu bildirmişdir. Azərbaycan tərəfi də Aİ ilə əməkdaşlığı davam etdirməyə hazırdır".

**"ASAN xidmət" XXI əsrdə vətəndaşlara Dövlət xidmətlərinin ən səmərəli üsullarının axtarışları sahəsində Azərbaycanın əldə etdiyi unikal müvəffəqiyyətidir. Bunu "Trend"-ə açıqlamasında "Bakı-Xəbər"qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**

# "ASAN xidmət"in milli qürur verən məqamları...

## *Aydın Quliyev: "Azərbaycan və azərbaycanlılar ictimai xidmətin ən səmərəli üsulu olaraq "ASAN xidmət"lə qürur duya bilər"*



O bildirib ki, bəlkə də yaxın bir neçə onillər ərzində bundan da səmərəli ictimai xidmət modellərinin düşünülə biləcəyini təsəvvür etmək çətindir: "ASAN xidmət" qədər sürətlə və geniş miqyasda cəmiyyətin gözündə populyarlaşan başqa bir sosial xidmət layihəsi olmayıb. "ASAN xidmət"in Azərbaycan cəmiyyətində tez populyarlıq qazanmasının səbəbləri məhz bu modelin öz mahiyyətində və məzmunundadır.

Onun sözlərinə görə, "ASAN xidmət" elə bir ictimai-sosial və tarixi şəraitdə tətbiq edildi ki, sovet dövrünün və 90-cı illərin əvvəllərindəki bezdirici ictimai xidmət üsullarının çirkin qalıqları hələ də yaşayırdı. İnsanlar qeyri-insani münasibətlər, rüşvət, təhqir, alçaldıcı, süründürməçi və narahat şəraitdə ən kiçik sosial məsələnin həllinə həftələrlə vaxt itirir, bir çox hallarda hətta məqbul nəticə də əldə edə bilmirdilər.

"ASAN xidmət" fəaliyyətə başladığı ilk günlərdən insanlar cəmiyyətimizin onillər boyu əziyyət çəkdiyi neqativ xidmət atmosferinə qısa vaxtda son qoyulacağına inandı. "ASAN xidmət"in ictimai və hətta beynəlxalq miqyasda böyük xarizmatik və praktik etimad qazanması danılmaz reallıqdır. Bu gün yüzlərlə sosial xidmət növlərinin ən asan şəkildə həlli cəmiyyət-dövlət etimadının sarsılmaz sütunlarından birinə çevrildi. Bu gün Azərbaycan vətəndaşları ən az vaxt sərfi ilə, əsəb və izafi resurs itkiləri vermədən ən müxtəlif sosial-məişət problemlərinin həlli formasına sahibdir.

"ASAN xidmət" Azərbaycan dövlətinin sosial və xalqa xidmət məzmununu birbaşa müəyyənləşdirən alətlərdən biridir. Cəmiyyətimiz ASAN sistemində özünün sosial məsələlərinin həlli ilə qısamüddətli rahatlıq jestlərini birləşdirə bilir.

Ekspert bildirir ki, "ASAN xidmət"də insanlar işlə istirahəti üzvi şəkildə birləşdirə bilir: "Nəzərə almaq lazımdır ki, "ASAN xidmət"də vətəndaşlara həm də müxtəlif kiçik ictimai iaşə xidmətləri göstərilir. ASAN-ın yaxın xarici ölkələrdə də populyarlıq qazanması çox əhəmiyyətli faktdır. Azərbaycan cəmiyyətinin ASAN-ı ən səmərəli model kimi mənimsəməsi onun xaricdə də böyük şöhrət tapmasının həlledici şərtidir. Azərbaycan və azərbaycanlılar ictimai xidmətin ən səmərəli üsulu olaraq ASAN-la qürur duya bilər".

# Prezidentin Kürdəmirdəki maraqlı bəyanatları ekspert müzakirələrində...

**"Biz ölkəmizi, sərhədlərimizi qorumalıyıq, informasiya sərhədlərimizi, mənəvi sərhədlərimizi elə möhkəm inşa etməliyik ki, heç bir kənar qüvvə bizim nə milli-mənəvi dəyərlərimizə, nə müstəqilliyimizə, nə də gələcək uğurlu inkişafımıza mane ola bilməsin".**

*"Ölkənin informasiya təhlükəsizliyinin qorunmasına səy göstərməliyik"*

***Rəsul Cahangirli:*** *"Prezidentin bununla bağlı toxunduğu məqamlar..."*

Bu sözləri Prezident İlham Əliyev Kürdəmirdə "ASAN xidmət" mərkəzinin açılışında deyib.

Dövlət başçısı bildirib ki, bütün bunlarla bərabər, biz qapalı şəraitdə yaşaya bilmərik: "Dünyada, regionumuzda gedən proseslər əlbəttə ki, bizə də təsir göstərir. Əfsuslar olsun ki, bu gün regionumuzda proseslər mənfi istiqamətdə gedir, biz bunu görürük. Yeni münaqişə, yeni qarşıdurma ocaqları, müharibələr, vətəndaş müharibələri - bütün bu mənfi meyllər, o cümlədən, iqtisadi sahədə dünyada yaşanan böhran bizə də təsir göstərə bilər və göstərir. Ona görə biz dünyada gedən prosesləri yaxından izləyərək öz addımlarımızı, o cümlədən, taktiki addımlarımızı buna uyğun atmalıyıq. Nəzərə alsaq ki, ölkə daxilində risqlər yoxdur, - nə siyasi risqlər, nə sosial, nə iqtisadi, nə fiziki risqlər, - bütün mümkün olan problemlər kənardan gələ bilər. Həm ideoloji təxribat, - bu barədə mən artıq öz sözümü dedim, - həm də ki, başqa təxribatlar".

Prezidentin fikrincə, elə etməliyik ki, bizdən sonra gələn nəsillər, gənclər öz fəaliyyətlərini bu istiqamətdə qursunlar: "Təxribatlara uymasınlar, bəzi beynəlxalq təşkilatların yalan məruzələrinə inanmasınlar. Onların arxasında çox ciddi siyasi maraqlar dayanır".

Bütün bu deyilənlərin fonunda, informasiya təhlükəsizliyi ilə bağlı məsələlərə ekspertlər necə yanaşırlar?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, Prezident İlham Əliyevin bununla bağlı toxunduğu məqamlar çox vacib əhəmiyyət kəsb edir: "Məsələ ondadır ki, müasir dövr informasiya əsridir. İnformasiyalar dünyadakı proseslərə təsir göstərir. Elə vacib informasiyalar var ki, onları qorumaq lazımdır. Azərbaycanı istəməyən qüvvələr var və onlar ölkənin informasiya təhlükəsizliyinə zərər vurmaq istəyirlər. Bəzən bilmədən gənclər bu qüvvələrin təsiri altına düşürlər. Bütün bunlar onu deməyə əsas verir ki, əsrimiz informasiya əsri olduğuna görə belə məsələlərdə diqqətli olmalıyıq.




Ölkənin informasiya təhlükəsizliyinin qorunmasına səy göstərməliyik. Bu işi təkcə dövlətin üzərinə atmaq doğru olmaz. Hamı bu işdə üzərinə düşən vəzifəni yerinə yetirməlidir. Kim informasiya və təhlükəsizlik məsələlərinə xüsusi önəm verirsə, bu məsələdə lazımi tədbirlər görübsə, heç şübhəsiz ki, üstünlük əldə edəcək. Bu baxımdan hesab edirəm ki, ölkə başçısının gənclərlə görüşündə səsləndirdiyi fikirlər xüsusi önəm kəsb edir. İnformasiya təhlükəsizliyi baxımından sərhədlərimizin qorunması vacibdir. Bu həm də milli-mənəvi dəyərlərimizin qorunması deməkdir".

***Vidadi ORDAHALLI***

# Polisin seçkidə zəruri rolunu hədəfə alanların son məqsədi...

**Azərbaycanda polisin fəaliyyəti, işi yalnız qanun çərçivəsində həyata keçirilir. Polisin vəzifəsi ölkədə ictimai asayişi qorumaq, qanunlara riayət olunmasını təmin etməkdən ibarətdir. O cümlədən, ölkədə seçkilər keçirilən vaxt polis tənzimləyici funksiyanı yerinə yetirir.**




***Şəmsəddin Əliyev:*** *"Düşüncəsində, fəaliyyətində radikallıq olan və şəxsi ambisiyadan çıxış edən şəxslər polisi qaralamaq məqsədi güdürlər"*

İctimai asayişi qoruyaraq sabitliyi təmin edir. Nə əvvəl, nə də sonrakı dövrlərdə polis seçkiyə müdaxilə etməyib. Bununla bağlı bəlli bir məsafəni hər zaman qoruyub.

Ancaq bütün bunlara baxmayaraq, nədənsə, hər dəfə polisin zəruri tənzimləyici funksiyası hədəf alınır. Xüsusən də ölkədə seçki kampaniyası dövründə bu özünü daha qabarıq göstərir. Ənənəvi olaraq müəyyən qüvvələr polisi hədəf alaraq qaralamağa çalışırlar. Seçkidə hansısa nüfuzu, sosial bazası olmayan və məğlub olmaları qaçılmaz olan şəxslər buna görə polisi ittiham edirlər. Sanki bunların qalib olmasını polis əngəlləyib. Yeri gəldi-gəlmədi, polisin ünvanına tənqidi fikirlər səsləndirir, onları qaralamağa çalışırlar. Hansı ki, qeyd olunduğu kimi, bunların heç biri ilə polisin əlaqəsi yoxdur. Polis siyasətə qarışmır. Ancaq hər yerindən duran polisi günahkar çıxarmağa çalışır.

Maraqlıdır, polisin seçkidə tənzimləyici rolunu hədəfə alanların məqsədi nədir?

Məsələyə münasibət bildirən "Polisə Dəstək" İctimai Birliyinin rəhbəri Şəmsəddin Əliyevin sözlərinə görə, müəyyən qüvvələr bu minvalla polisə qara yaxmaq istəyirlər: "Əvvəla seçki hüququ bütün dünyada vətəndaşların siyasi hüquqlarından biridir. Azərbaycanda, digər sivil ölkələrdə olduğu kimi, polis siyasətə qarışmır. Vətəndaşlar bilməlidirlər ki, Azərbaycan polisində heç bir partiyanın özəyi yoxdur. Ancaq polis siyasətə qarışmasa da, dövlətin cinayətkarlığa qarşı siyasətinin formalaşmasında iştirak edir və onun icrasını təmin edir. Polisin cinayətkarlığa qarşı mübarizə siyasətində iştirakına vətəndaşlar dəstək verməlidirlər. Bəziləri buna dəstək vermək əvəzinə, ancaq polisin fəaliyyətini qaralamaq istəyirlər. Sabitliyin qorunmasına əngəllər yaradırlar. Hesab edirəm ki, bütün bunlar yolverilməzdir. Ölkə polisi fəaliyyətini qanun çərçivəsində həyata keçirir. Seçki günü bəziləri başqa rola girərək yalnız polisi qaralamaq yolunu tuturlar. Düşünülmüş şəkildə polisi siyasətə çəkmək istəyirlər. Hansı ki, polis siyasətə qarışmır. Digər günlərdə olduğu kimi, seçki günü də siyasətə qarışmayaraq ictimai asayişin qorunmasında, tənzimlənməsində qanun çərçivəsində öz funksiyasını həyata keçirir.

*"Hesab edirəm ki, belələri öz xəbis niyyətlərinə çata bilməyəcəklər"*

**Təbii ki, kimsə ictimai qaydaları pozursa, polis buna biganə qala bilməz. Düşüncəsində, fəaliyyətində radikallıq olan və şəxsi ambisiyadan çıxış edən şəxslər polisi qaralamaq məqsədi güdürlər. Bu minvalla həm də özlərini virtual məkanda təsdiqləmək istəyirlər. Hesab edirəm ki, belələri öz xəbis niyyətlərinə çata bilməyəcəklər".**

***Vidadi ORDAHALLI***

# Prezidentin seçki barədə Kürdəmirdə ən yeni bəyanatının real nəticəsi - saxtakar dairələrdə nəticələr bir-bir ləğv olunmağa başladı

## MSK-nın nəticələrini ləğv etdiyi dairələrin sayı dördə çatdı




***Rasim Quliyev:** "...bəzi deputatlığa namizədlər və onların seçki kampaniyasını həyata keçirən komanda üzvləri arasında elə adamlar vardı ki..."*

**Prezident İlham Əliyev fevralın 12-də Kürdəmirdə "ASAN xidmət" mərkəzinin açılışında, gənclərlə görüşündə növbədənkənar parlament seçkiləri zamanı baş verən qanun pozuntularından danışıb: "Pozuntulara yol verən şəxslər öz cəzasını almalıdırlar ki, gələcəkdə bu pozuntulara yol verilməsin. Buna qətiyyən ehtiyac yoxdur.**

Çünki bu gün tam səmimiyyətlə deyirəm, bizim siyasətimizə Azərbaycanda alternativ yoxdur. Elə bir siyasi qüvvə yoxdur ki, o, müəyyən dərəcədə xalqın rəğbətini qazansın. Bu seçkilər bir daha onu göstərdi ki, bizim apardığımız siyasət xalqımızın mütləq əksəriyyətinin maraqlarına cavab verir və gördüyümüz işlər də göz qabağındadır".

Dövlət başçısı bildirib ki, parlament seçkiləri rəqabət şəraitində keçib: "Parlament seçkiləri bir daha göstərdi ki, bizim niyyətimiz demokratik inkişafın təmin edilməsidir. Çünki hətta həmişə bizə ən tənqidi mövqedən yanaşan təşkilatlar da seçkilərlə bağlı məruzələrində müsbət meylləri qəbul etməyə məcbur olublar. Və pozutulara gəldikdə, qeyd ediblər ki, bu pozuntular prosedur xarakterli pozuntulardır. Yəni bu, hər bir ölkədə var. Heç bir ölkədə tam kamil seçkilər keçirilmir. Amma bu seçkilərdə nə saxtakarlıq olub, nə ciddi pozuntular olub, nə də hər hansı pozuntu ki, seçkilərin legitimliyini və yaxud da nəticələrini şübhə altına alsın. Müşahidəçilərin mütləq əksəriyyəti seçkiləri çox müsbət qiymətləndirdi. Və bəziləri qeyd etdi ki, bu, bir çox ölkələr üçün nümunə ola bilər. ATƏT-in Demokratik Təsisatlar Bürosu, hansı ki, həmişə bizə qərəzli yanaşır, onların da hesabatı hesab edirəm ki, tarazlı idi. Əvvəlki dövrlərə nisbətən daha obyektiv idi. Əlbəttə ki, bəzi məsələlərlə biz razılaşa bilmərik. Amma məruzənin ümumi nəticəsi hesab edirəm ki, obyektivliyə daha yaxın idi və biz də bəyan etmişik ki, mövcud olan pozuntular ciddi araşdırılacaq. Pozuntulara yol vermiş şəxslər cəzalandırılacaq. Və bundan sonra da biz bütün beynəlxalq təşkilatlarla bu istiqamətdə fəaliyyətimizi və əməkdaşlığımızı davam etdirəcəyik.

Bu dəfə 1300-dən çox namizəd olub. Bu, rekord göstəricidir. Bu, onu göstərir ki, seçkilər rəqabət qabiliyyətli keçib. Rəqabət onda nədir? Bir dairədən əgər orta hesabla 10 nəfər iştirak edirsə, bu, rəqabət deyilmi? Yekun məruzədə yazılmışdı ki, rəqabət olmayıb. Bəs, onda rəqabət nədir? Hər bir namizəd öz dairəsində açıq görüşlər keçirirdi, istədiyi sözləri deyirdi, bəziləri hakimiyyəti tənqid edirdi. Heç kim buna görə heç kimə maneçilik törətmirdi. Bəs, onda açıq rəqabət nədir? Deyirlər ki, sərbəst toplaşma azadlığı təmin olunmayıb. Yalandır, olunub. Çünki indi müvafiq yerlərdə hər kəs sərbəst toplaşma haqqını icra edə bilər. Amma qanun çərçivəsində. Necə ki, başqa ölkələrdə. Ona görə seçki prosesi bütün demokratik meyarlara cavab verib. Heç kim deyə biməz ki, seçki prosesində hər hansı pozuntular olub. Və seçkilər günü də çox müsbət şəkildə seçkilər keçirildi. Əgər pozuntular olubsa, bir də demək istəyirəm ki, araşdırılacaq. Və biliərm ki, Mərkəzi Seçki Komissiyası işə başlayıb, yerlərdən məlumat toplayırıq. Biz özümüz də istəmirik ki, bu pozuntular olsun".

Göründüyü kimi, ölkə başçısı pozuntuya yol verənlərin cəzalandırılacağını deyir. Deməli, belə hallar mövcud olub. Sosial şəbəkələrdə aparılan müzakirələrdən görünür ki, ölkə başçısının çıxışı bir çox namizədi və seçiciləri ruhlandırıb. Belə versiyalar səslənir ki, nöqsanlara yol verilən bəzi dairələrin nəticələri ləğv edilə bilər. MSK-dan bu qərarı gözləməyə dəyərmi?

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, seçki günü baş vermiş neqativ hallar barədə danışarkən bir suala da cavab axtaraq: "Parlament özünü buraxırsa və iqtidarın islahatçı ruhuna cavab vermirdisə, deməli, məqsəd daha çevik və müasir düşüncə tərzinə malik, aparılan islahatlara uyğun seçki keçirmək və parlamentin seçilməsinə şərait yaratmaqdır. Əslində, seçkilərin ciddi rəqabət şəraitində və gərgin keçirilməsi və nəticələr bu sahədə də islahatlardan xəbər verdi. Sadəcə olaraq təəssüflə qeyd edirik ki, bəzi deputatlığa namizədlər və onların seçki kampaniyasını həyata keçirən komanda üzvləri arasında elə adamlar vardı ki, aparılan struktur, hüquqi və demokratik islahatların ruhuna, mənəvi-əxlaqi dəyərlərə uyğun gəlməyən neqativ hərəkətlərə yol verərək, dövlətin imicinə və dövlətçiliyimizin inkişaf prinsiplərinə, vətəndaş inamsızlığına səbəb olan hərəkətlərə yol vermişlər. Həmin neqativ halların baş verdiyi məntəqə və dairələrdə faktlar üzrə MSK tərəfindən ciddi araşdırmaların aparılacağına və müvafiq tədbirlər görüləcəyinə, lazım gəldikdə həmin nəticələrin ləğv ediləcəyinə ümid edirik. YAP, bitərəf və ya hər hansı siyasi partiya mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda xalqın alqışladığı və dünyada ölkəmizin nüfuz və imicinin yüksəlməsi, dövlətin güclənməsi və inkişaf etməsi istiqamətində aparılan ardıcıl, sabit siyasət və demokratik islahatların ruhuna uyğun gəlməyən hərəkət və qanunazidd əməl törədən deputatlığa namizəd və ya onun adamlarının qanun qarşısında ədalətli şəkildə cəzalanacaqlarına ümid edirik.

Beləliklə, hesab edirik ki, keçirilən seçkilər demokratiyanın inkişafı və müsbət dəyişikliklər istiqamətində mühüm irəliləyiş sayıla bilər. Hər bir dairədən yalnız bir namizədin seçilə biləcəyi mümkünlüyünü nəzərə alaraq seçilə bilməyən digər namizədlərin narazılığını təbii qəbul edirik. Eyni zamanda, qalib gələrək deputat seçilən rəqiblərinin əlini sıxmaq mədəniyyətini də vətəndaşlarımıza arzulayırıq. Mübarizədə cəmiyyətin ziyalı, mədəni elitisının təmsilçisi olan deputatlığa namizədlər mübarizəni düşmənçilik hissləri ilə, qeyri-sağlam üsullarla deyil, sağlam intellektual rəqabət şəraitində aparmalı və cəmiyyətə udub-uduzmaq mədəniyyətini göstərməlidirlər".

*(Ardı 5-ci səh.)*



*(Əvvəli 4-cü səh.)*

Mərkəzi Seçki Komissiyasının (MSK) fevralın 13-də keçirilən iclasında 80 saylı İmişli-Beyləqan Seçki Dairəsindən Hikmət Şirinov, Rasim Əmiraslanov və digər namizədlərin şikayətlərinə baxılıb. Müraciətdə qeyd olunub ki, bəzi seçki məntəqələrində seçki bülletenləri əvvəlcədən kəsilmiş, barmaqlar rənglənməmiş, müşahidəçilərin səsvermənin hesablanması prosesində iştirakına manеələr yaradılıb.

İclasda bildirilib ki, araşdırma zamanı məlum olub ki, 49 protokolun 11-də səsvermənin nəticələri seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermir. Qutudan çıxan bülletenlərin sayı ilə seçicilərin sayı uyğun gəlmir. Ekspert qrupu araşdırandan sonra belə bir nəticəyə gəlib ki, dairə üzrə seçkilər etibarsız sayılsın. Təklif səsə qoyularaq qəbul edilib.

Xatırladaq ki, bu dairənin lider namizədi Çingiz Qənizadə idi. MSK 35 saylı Xətai 3-cü Seçki Dairəsində də parlament seçkilərinin nəticələrini ləğv edib. Bildirilib ki, araşdırmalar zamanı həmin seçki dairəsi üzrə pozuntuların baş verdiyi müəyyən edilib və bu pozuntular həmin dairə üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən hallardır.

İclasda həmin dairə üzrə seçkinin nəticələrinin ləğv edilməsi təklif olunub və təklif səsə qoyularaq qəbul edilib. Qeyd edək ki, həmin dairə üzrə lider namizəd Abbasov Rauf Arif oğludur.

MSK-nın iclasında 74 saylı Lənkəran Seçki Dairəsi üzrə seçkilərin nəticələri də ləğv edilib. İclasda bildirilib ki, həmin dairədən namizəd olan bir neçə nəfər MSK-ya müraciət edərək dairədə seçki qanunvericiliyinin pozulduğunu bildirib və dairə üzrə seçkilərin nəticələrinin etibarsız sayılmasını xahiş ediblər. İclasda bildirilib ki, MSK tərəfindən aparılan araşdırmalar nəticəsində iddialar öz təsdiqini tapıb və bir neçə məntəqədə seçkilərin iradəsini müəyyən etməyə imkan verməyən pozuntular baş verib və bunlar seçkilərin nəticələrini ləğv etməyə hüquqi əsaslar yaradıb. Təklif səsə qoyularaq 74 saylı Lənkəran Seçki Dairəsi üzrə seçkilərin nəticələri ləğv edilib. Qeyd edək ki, həmin dairə üzrə lider namizəd Hadı Rəcəblidir.

33 saylı Xətai 1-ci Seçki Dairəsi üzrə parlament seçkilərinin nəticələri də ləğv edilib. Həmin dairə üzrə deputatlığa namizədlərdən biri Mərkəzi Seçki Komissiyasına müraciət edərək qanun pozuntuları baş verdiyi üçün dairə üzrə seçkilərin nəticələrinin ləğv edilməsini xahiş edib. İclasda bildirilib ki, araşdırmalar nəticəsində həmin dairədə seçkilərin nəticələrinə təsir edəcək pozuntular aşkarlanıb və bu pozuntular seçkilərin nəticələrini ləğv etməyə hüquqi əsaslar yaradıb. İclasda həmin dairə üzrə seçkilərin nəticələrinin ləğv edilməsi təklif edilib. Təklif səsə qoyularaq qəbul olunub. Qeyd edək ki, həmin dairə üzrə lider namizəd Hüseynbala Mirələmovdur.

MSK-nın iclasında 60 saylı Salyan-Neftçala seçki dairəsində səsvermə nəticələri ilə bağlı şikayətə də baxılıb. Sonda həmin müraciətin Dairə Seçki Komissiyasına göndərilməsi ilə bağlı qərar qəbul edilib.

Qeyd edək ki, 60 saylı Salyan-Neftçala seçki dairəsinin lider namizədi Fəzail Ağamalıdır.

MSK-nın iclasında digər seçki dairələri ilə bağlı daxil olan müraciətlərə də baxılıb.

"Trend"in məlumatına görə, 91 saylı Ucar, 125 saylı Zəngilan-Qubadlı və 60 saylı Salyan-Neftçala, 50 saylı Abşeron-Qobustan, 72 saylı Yardımlı-Masallı, 95 saylı Tərtər, 42 saylı Sumqayıt 2-ci, 14 saylı Xəzər, 15 saylı Yasamal 1-ci, 10 saylı Binəqədi 3-cü, 28 saylı Sabunçu 3-cü, 79 saylı İmişli, 45 saylı Abşeron, 109 saylı Balakən, 67 saylı Cəlilabad seçki dairələri üzrə müraciətlərə baxılıb.

Müzakirələrdən sonra müraciətlərin dairə seçki komissiyalarına göndərilməsinə qərar verilib.

***Məhəmmədəli QƏRİBLİ***

# YAP-dan olan millət vəkillərinin açıq sosial şəbəkə səhifələri saxlamaq problemi...

**Bu seçki prosesində namizədlərin daha çox istifadə etdiyi təbliğat metodlarından biri də sosial şəbəkələr oldu. Əsasən də "Facebook" üzərindən aparılan təbliğata daha çox rast gəldik. Ən maraqlı tendensiya bu oldu ki, biz seçki prosesində sosial şəbəkələrdən illər uzunu aralı qalan şəxslərin istifadə etdiyinin şahidi olduq.**




Danılmaz faktdır ki, hakim Yeni Azərbaycan Partiyasından millət vəkili olan şəxslər sosial şəbəkələrdən elə də çox istifadə etmirdilər. Hətta elə millət vəkilləri vardı ki, onlarla telefon əlaqəsi qurub, informasiya almaq belə müşkül məsələyə çevrilirdi. Təbliğat dönəmində həmin adamların adından paylaşılan sponsorlu postları görəndə maraq bizi bürüdü. Baxdıq ki, sən demə, bəzi YAP namizədləri yalnız seçkidən-seçkiyə öz səhifələrini aktivləşdirirlər. Ancaq bunu heç də bütün YAP deputatlarına şamil etmək olmaz. Bu səbəbdən də hakim partiyadan deputat olan şəxslərin sosial şəbəkələrdəki aktivliyinin hansı dərəcədə olduğunu araşdırmaq qərarına gəldik.

YAP-ın keçmiş və yenidən seçilən deputatları arasında aktiv "Facebook" istifadəçiləri olanlara diqqət edək. Millət vəkili Aydın Mirzəzadənin adına həm şəxsi profil, həm də eyniadlı səhifə var. Hər gün profil üzərindən paylaşımlar edilir. Millət vəkili Nəsib Məhəməliyev də sosial şəbəkədə çox aktivdir. Hətta gedən polemikalarda yaxından iştirak edir. Gəncədən hakim partiyanın namizədi kimi mandat alan Naqif Həmzəyevin adına isə bir neçə profil var. O da sosial şəbəkələrdə aktiv iştirak edir. Gəncədən millət vəkili seçilən Pərvin Kazımzadənin adına şəxsi profilin olduğuna rast gəlmədik. Seçki dönəmində öz adına olan səhifə üzərindən aktiv təbliğat apardığını gördük. Qaradağdan millət vəkili olan Aydın Hüseynovun da adına profil var, seçki dönəmində sosial şəbəkələr üzərindən aktiv təbliğat apardığı üzə çıxdı. Elman Nəsirov da YAP deputatı olaraq, sosial şəbəkə istifadəçisidir, amma deyəsən daha çox izləməyə üstünlük verir. Parlamentdə YAP-ı təmsil edən nisbətən yaşlı millət vəkillərinin adına isə formal səhifələrin olduğunu gördük. Hadı Rəcəbli, Hüseynbala Mirələmovun adlarına səhifələr olsa da, demək olar ki, fəaliyyətsizdirlər. Yeni səhifələr formal olaraq yaradılıb. Məlahət İbrahimqızı adlı millət vəkilinin isə adına, ümumiyyətlə, sosial şəbəkələrdə rast gəlinmir. Siyavuş Novruzov sosial şəbəkəyə yeni qoşulanlardan sayılsa da, adına iki səhifə fəaliyyət göstərir, özü də aktiv çalışır. Bu YAP funksioneri heç bir virtual ictimai müzakirədə iştirak etmir, yalnız onun adından özü ilə bağlı xəbərlər paylaşılır. Hakim partiyanı ilk dəfə parlamentdə təmsil edəcək şəxslərin adı ətrafında apardığımız araşdırma da ürəkaçan olmadı. 12 saylı Qaradağ-Binəqədi-Yasamal Seçki Dairəsindən seçilən ən gənc namizəd Səbinə Xasıyevanın adına nəinki profil yoxdur, ümumiyyətlə, axtarış sistemlərində hər hansı bir məlumat belə əldə etmək mümkün deyil. İlk dəfə YAP-ı təmsil edəcək Hicran Hüseynovanın da adına profil və ya səhifəyə rast gəlmədik.

Bütün bunlardan belə nəticə hasil olur ki, YAP-dan olan bir çox deputat virtual ünsiyyətdən çəkinir. Adlarına profil olsa da, orada aktivlik nümayiş etdirmirlər. İstənilən halda, hakim YAP-ı təmsil edən millət vəkilləri yalnız qeydiyyat xatirinə sosial şəbəkələrdə olmamalıdırlar. Olmayanlar isə həmin məkana gəlib, xalqı, seçiciləri maraqlandıran suallara cavab verməlidirlər. Çünki onların ən başlıca missiyalarından biri təmsil etdikləri partiyanı və hakimiyyəti müdafiə etmək olmalıdır.

***Məhəmmədəli QƏRİBLİ***

**Rusiya Xarici İşlər Nazirliyinin (XİN) İnformasiya və mətbuat departamentinin RF XİN-in saytında yerləşdirilmiş şərhində yer alan fikirlərdə qurumun adından Azərbaycandakı seçkilərə münasibət bildirilib. Sitat: "Seçkilərin müvəffəqiyyətlə keçirilməsi münasibətilə azərbaycanlı dostlarımızı təbrik edirik.**

# 9 fevral seçkisinin daha bir strateji önəmi - Rusiya XİN məxsusi bəyanat yaydı...



Bu seçkilər Azərbaycan rəhbərliyinin ölkənin ictimai-siyasi həyatının demokratikləşməsinə və modernləşdirilməsinə yönəldilmiş islahatlarını əhalinin dəstəklədiyini göstərir".

Şərhdə deyilir ki, fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilib: "Azərbaycan Mərkəzi Seçki Komissiyasının məlumatına görə, Prezident İlham Əliyevin başçılıq etdiyi hakim Yeni Azərbaycan Partiyası seçkilərdə liderdir. Milli Məclisdəki 125 deputat yeri uğrunda 1314 namizəd mübarizə aparıb ki, bu da əvvəlki seçkilərlə müqayisədə təqribən iki dəfə çoxdur.

Seçkiləri çoxsaylı yerli (77 mindən çox) və xarici (883), o cümlədən, Rusiyadan müşahidəçilər izləyib. Müstəqil Dövlətlər Birliyini və Şanxay Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin müşahidəçilərinin fikrincə, seçkilər milli qanunvericiliyin tələblərinə müvafiq keçirilib, vətəndaşların seçki hüquqlarının kobud şəkildə pozulması faktları müəyyən olunmayıb".

RF XİN-dən təəssüflə bildiriblər ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosundan, ATƏT-in Parlament Assambleyasından, habelə Avropa Şurasının Parlament Assambleyasından olan müşahidəçilər reallığa uyğun olmayan qərəzli və subyektiv yekun rəylər bildiriblər: "Ümid edirik ki, Milli Məclisin deputat korpusunun yeni tərkibi ilə Rusiya Federasiyasının Federal Məclisi arasında sıx və konstruktiv qarşılıqlı fəaliyyət Rusiya ilə Azərbaycan arasında ənənəvi dostluq və strateji tərəfdaşlıq ruhunda davam edəcək".

***Qabil Hüseynli:** "Rusiya öz mesajını verir və Azərbaycanı təsir dairəsindən buraxmaq istəmədiyini bəyan etmiş olur"*

***Elşən Həsənov:** "Rusiya bunu yaxşı dərk etdiyi üçün, məhz siyasətini yürüdən qurumun adından sözünü deyir"*

Göründüyü kimi, Rusiya XİN öz adından seçkiləri dəyərləndirməklə yanaşı, həm də Avropa strukturlarının səsləndirdikləri bəyanatları pisləyib. Rusiya tərəfdən ortaya qoyulan sərt və korrekt yanaşma növü nəyin təzahürü sayıla bilər?

Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, bu məsələdə Rusiyanın öz maraqları görünür: "Bilir ki, Avropa qurumlarının məsələyə münasibəti heç də yalnız seçkiyə verilən qiymətdən qaynaqlanmır. Bu həm də ölkələrə təzyiq metodu kimi seçilir. Buna görə də Rusiya öz mesajını verir və Azərbaycanı təsir dairəsindən buraxmaq istəmədiyini bəyan etmiş olur".

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov isə qəzetimizə bildirdi ki, bu məsələdə seçkiyə münasibət bir vasitədir: "Əslində, fövqəlgüclər öz təsir dairələrini müəyyən edirlər. Avropa qurumları öz rəylərində qərəzli yanaşmalar ortaya qoyurlar. Əminəm ki, bütün bunlar Azərbaycan xalqının rifahı üçün edilmir. Öz geopolitik maraqlarını təmin etmək üçün belə mövzulardan istifadə edirlər. Rusiya bunu yaxşı dərk etdiyi üçün, məhz siyasətini yürüdən qurumun adından sözünü deyir. Yoxsa, seçkinin dəyərləndirilməsini Rusiyadan gələn nümayəndə heyəti aparıb və rəyini müsbət verib".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, son günlər sosial şəbəkələrdə 9 fevral 2020-ci il tarixində Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri zamanı baş vermiş bir sıra neqativ halları əks etdirən video və fotogörüntülər paylaşılır.**

# Bəzi saxtakar müəllimlərə görə bütün müəllimlər ordusunu təhqir etmək doğrudurmu...



Qeyd edək ki, bəzi müəllimlərin də bu prosesdə iştirakı bildirilir. Sosial şəbəkələrdə yayılan bu videogörüntülər sosial şəbəkə istifadəçiləri tərəfindən müəllimlərə qarşı kütləvi təhqir kampaniyası aparılması ilə nəticələnib. Bu videogörüntüləri yayanlar belə rəy yaratmaq istəyirlər ki, seçkidə saxtakarlığa yol verilibsə, burada günahkar ölkənin müəllim ordusudur. Bütöv bir müəllim ordusunu seçkini saxtalaşdırmaqda ittiham etməyin özü yanlış yanaşmadır. Hansısa müəllim öz müəllimlik şərəfini neqativ əməllərlə ləkələyirsə, buna görə ölkənin müəllim ordusu məsuliyyət daşımır.

Bu arada Təhsil Nazirliyi yayılan videogörüntülərə münasibət bildirib. Nazirlikdən deyiblər ki, seçki pozuntusuna yol verən müəllimlərlə bağlı tədbir görüləcək. O da bildirilib ki, hazırda ümumi proseslərlə bağlı Mərkəzi Seçki Komissiyası tərəfindən araşdırma aparılır: "Bildiyimiz kimi, qeyd olunan məsələlərlə bağlı Mərkəzi Seçki Komissiyası tərəfindən araşdırma aparılır. Araşdırmanın yekun nəticələrinə əsasən, baş vermiş qeyri-qanuni hallarla bağlı qanunvericiliyin tələblərinə uyğun müvafiq ölçü götürüləcək".

***Nadir İsrafilov:** "Bir neçə müəllimin saxtakar əməlinə görə bütöv bir müəllim ordusunun hədəfə alınması, onların ünvanına təhqirlər səsləndirilməsi əsaslı şəkildə doğru deyil"*

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini, tanınmış təhsil eksperti Nadir İsrafilov "Bakı-Xəbər"ə bildirdi ki, beş-on müəllimin seçki saxtalaşdırılmasında iştirakına görə ölkənin böyük müəllim ordusunu qaralamaq qətiyyən doğru deyil. "Bir neçə müəllimin saxtakar əməlinə görə bütöv bir müəllim ordusunun hədəfə alınması, onların ünvanına təhqirlər səsləndirilməsi əsaslı şəkildə doğru deyil. Tutalım, seçki prosesində saxtakarlıq halı baş veribsə və bu saxtakarlığı müəllim deyil, həkim, mühəndis və s. olsaydı, etməyəcəkdi? Bu məsələni müəllimlə əlaqələndirmək, müəllimləri seçkini saxtalaşdırmaqda ittiham etmək doğru deyil. Müəllimi hədəfə almaq, onun adını müəyyən neqativ məsələlərdə hallandırmaq ölkənin müəllim ordusunun hədəfə alınması deməkdir. Bilirsiniz ki, dövlət strategiyasının əsas məqsədi müəllimin nüfuzunun yüksəldilməsidir. Belə bir şəraitdə müəllimə qarşı bu cür kampaniya aparmaq doğru deyil. Aydın məsələdir ki, səsvermə məktəblərdə keçirilməlidir, bunun başqa yolu yoxdur. Çünki seçki bazar gününə düşür və həmin müddətdə də məktəblər boş olur və s. Seçki prosesində hər hansı bir neqativ hal baş veribsə, bunu bütün müəllimlərlə əlaqələndirmək doğru deyil. Son dövrlər müəyyən qüvvələr meydana çıxıb və onlar müəllimə, məktəbə qarşı radikal mövqedən çıxış edirlər".

N.İsrafilov hesab edir ki, seçkidə saxtakarlıq baş veribsə və burada hansısa peşə sahibinin də iştirakı olubsa, o bu sahənin bütün təmsilçilərinin qaralanmasına əsas vermir. "Müəllimlik sənətini antik alimlərdən tutmuş, bizim müasir siyasi rəhbərlərə qədər hər kəs şərəfli peşə hesab edir. Biz müəllimin hörmətini saxlamalıyıq, nüfuzunu qorumalıyıq.

Düzdür, son zamanlar müəllim adına, müəllim peşəsinə müəyyən xələl gətirən amillər oldu, amma ədalət naminə demək lazımdır ki, dövlət səviyyəsində müəllimlərin əməyinin qiymətləndirilməsi ilə bağlı çox iş görülür, müəllimlər diaqnostik qiymətləndirmədən keçirilir, mərhələli şəkildə onların əməkhaqqının artırılmasının şahidi oluruq. Bu gün 5 mindən artıq müəllim 1000 manat əməkhaqqı alır. Amma çox təəssüf ki, bəziləri müəllimə şər atır, onun nüfuzunu aşağı salmaq üçün işlər görürlər. Bir-iki müəllimin gördüyü neqativ hala görə bütün müəllimlər məsuliyyət daşıya bilməz" - deyə N.İsrafilov vurğuladı.

***İradə SARIYEVA***

Ermənistan Avropa İnsan Hüquqları Məhkəməsinin əli ilə Azərbaycana böhtan atır. Guya AİHM də təstiq edib ki, ermənilərlə azərbaycanlılar bir yerdə yaşaya bilməzlər. Ermənistan Xarici İşlər Nazirliyi bəyan edib ki, AİHM-in 30 yanvar tarixli qərarına görə, guya statusundan asılı olmayaraq, Azərbaycan hakimiyyəti nəzarətində olan hər bir erməni təhlükə altındadır:



# Ermənistan XİN Avropa Məhkəməsinin adından Azərbaycana təzə böhtan atdı - Məhkəmənin susması siyasi rüsvayçılıq olacaq

## *Mübariz Əhmədoğlu: "Ermənistan XİN-in yaydığı bəyanat təhrifedici xarakterlidir"*

"Yanvarın 30-da AİHM Saribekyan və Balayan Azərbaycana qarşı işilə bağlı qərar qəbul etdi. Bu, Azərbaycan nəzarətində, Azərbaycan hərbi polis idarəsində olan Ermənistan vətəndaşı Manvel Saribekyanın ölüm hadisəsi barədə idi. M.Saribekyan 2010-cu il sentyabrın 11-də pis hava şəraiti ilə əlaqədar itkin düşdü və Tavuş bölgəsində sərhədi keçərək Azərbaycan tərəfinin hissəsinə girib. Bir ay sonra isə, 2010-cu il noyabrın 4-də Saribekyanın cəsədi erməni tərəfinə verildi. Azərbaycan versiyasına görə, erməni çoban Azərbaycan hərbi polis idarəsində intihar edib".

Ermənistan XİN-i iddia edir ki, Saribekyan işgəncələrə məruz qalaraq ölüb. Guya AİHM-in məlum qərarı Ermənistan vətəndaşının həyatdan məhrum edilməsində Azərbaycanın məsuliyyətini təsdiqlədi. İddia olunur ki, guya statusundan asılı olmayaraq, Azərbaycan hakimiyyətinin nəzarətində olan hər bir erməni təhlükə altındadır.

Göründüyü kimi, erməni həyasızlığı o həddə gəlib çatıb ki, onlar nəinki öz adından, hətta beynəlxalq təşkilatların adından Azərbaycana böhtan atırlar. AİHM adından böhtanın atılması buna sübutdur. Digər tərəfdən, AİHM Ermənistan XİN-in bu yalanına reaksiya verməyib susqunluq nümayiş etdirəcəksə, bu əsl siyasi rüsvayçılıq olacaq.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin sədri Mübariz Əhmədoğlunun sözlərinə görə, ermənilər AİHM-in qərarını öz maraqlarına uyğun təhrif edirlər: "Mən özüm AİHM-in qərarını oxumuşam. Bu baxımdan Ermənistan XİN-in yaydığı bəyanat təhrifedici xarakterlidir. Yəni AİHM-in M.Saribekyan haqqında çıxardığı qərarı özlərinə xeyir edən formada təsvir ediblər. Sanki AİHM onların maraqları formada məsələyə yanaşıb. Hansı ki, bu heç də belə deyil. Bu o demək deyil ki, azərbaycanlılarla ermənilər bir yerdə yaşaya bilməzlər. Ona görə də onların bu cür yalan təqdimatlarına dərhal reaksiya verilməlidir. Azərbaycan Xarici İşlər Nazirliyi bəyan etməlidir ki, M.Saribekyan dövlət sərhədini pozduğuna görə saxlanıb. Digər sərhədi pozanların da adı çəkilməlidir. Bir məqamı qeyd edim ki, Azərbaycan sərhədini pozan erməni vətəndaşlarını Ermənistan müdafiə naziri psix adlandırdı. Bəyan edirlər ki, guya ruhi xəstə olduqlarına görə sərhədi pozublar. Bir belə adam sərhədi pozduğuna görə xəstə ola bilər?

*"Onların bu cür yalan təqdimatlarına dərhal reaksiya verilməlidir"*

M.Saribekyanla bağlı biz erməniləri küncə sıxa bilərik. Ermənilər həyasızcasına böhtan ataraq bəyan edirlər ki, guya Azərbaycanda Saribekyana salyarka vurublar. Belədirsə, o zaman cəsədini çıxarıb ekspertizadan keçirsinlər. Hesab edirəm ki, biz bunu tələb etməliyik. Ermənistan Müdafiə Nazirliyinin qospitalının rəyi var ki, guya Saribekyan Azərbaycan tərəfinə keçəndən sonra üzərində eksperiment keçirilib, bədəninə salyarka yeridilib. Həqiqətən belədirsə, o zaman bunu sübut etsinlər. O üzdən, biz bu məsələni AİHM-də qaldırmalıyıq".

***Vidadi ORDAHALLI***

Diplomat günü münasibətilə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Qriboyedovun İrəvanda abidəsi önünə gül dəstəsi qoyub və erməni diplomatlarının məzarlarını ziyarət edib. Rusiya səfiri ziyarətindən sonra erməni və rus xalqlarının dostluğundan, strateji maraqlarından və Rusiyanın Ermənistanla əməkdaşlığı qiymətləndirməsindən danışıb.



# Rusiya səfirinin jesti və ermənilərin üzə çıxan sifəti - Qriboyedovun ruhuna minnətdar olmalı ikən ona hörmətsizlik etdilər

## *Arzuxan Əlizadə: "Ermənilər üçün müqəddəs heç nə yoxdur"*

Erməni mediası isə Rusiya səfirini tənqid edərək onu qeyri-səmimilikdə ittiham edib. Erməni icmalçı Akop Badalyan çoxəsrlik Ermənistan-Rusiya dostluğundan bəhs edən Rusiya səfirinə belə bir sual verib: "Sənin qardaşın Avel hardadır, Kopırkin!".

İcmalçı verdiyi suala da elə özü cavab tapmağa çalışıb. O qeyd edib ki, qardaşlar arasında yanlışlıq ola bilər: "Ancaq bir qardaşın digər qardaşının məkrli ölüm hökmünü imzaladığını və təxminən yüz il bu hökmün öhdəliyini bəyan etdiyini təsəvvür etmək mümkündürmü? Söhbət 2021-ci ildə 100 ili tamam olacaq məşhur Rusiya-Türkiyə müqaviləsindən gedir. Bu müqaviləyə sadiqlik andı, Rusiya rəhbərliyinin Atatürklə dostluqda tanınması çətin ki, 100-cü ilə çatsın, amma artıq səsləndirilən vədlər "Sənin qardaşın Avel hardadır, Kopırkin" sualını verməyə bütün əsaslar verir. Və ya qardaşınız Avel kimdir? Üstəlik, həqiqət anı - ermənilərin məhvinə gətirən 100 illik müqavilə yaxınlaşır".

Göründüyü kimi, erməni mediasının Rusiya səfirini topa tutması bir daha onların xəbis sifətini ortaya qoydu. Ən azından ona görə ki, onlar erməni dövlətinin var olmasına görə Rusiyaya minnətdar olmalıdırlar. Xüsusən də Rusiya diplomatı olan Qriboyedova. Çünki Qriboyedovun sayəsində ermənilər Türkiyədən, İrandan Qafqaza köçürüldülər. 19-cu əsrdə ermənilər Azərbaycanın əzəli ərazilərində kütləvi məskunlaşmağa başladılar. Sonrakı dövrdə də Qafqazda Azərbaycan türklərinin ərazilərində yoxdan erməni dövlətini yaratdılar. Rusiyanın köməyilə 1920-ci ildə Ermənistanın ərazisi xeyli genişləndirildi. Bütün bunlara görə Qriboyedova minnətdar olmaq əvəzinə, onun ruhuna hörmətsizlik edirlər. Rusiyanı borclu çıxarmağa çalışırlar.

*"Qriboyedov sayəsində süni şəkildə Qafqazın demoqrafik tərkibi dəyişdirildi"*

Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, bu bütün ermənilərə xas olan xarakterik nankorluqdur: "O baxımdan bu kiməsə təəccüblü gəlməməlidir. Ermənilər tarixən öz hamilərinə qarşı nankor olublar. Bizans imperiyası dönəmində onlara sığınıblar, Osmanlı imperiyası qurulandan sonra türklərə sığınıblar. Elə ki, Osmanlı zəiflədi, başladılar yaşadıqları dövlətə xəyanət etməyə, dövlətin qanunlarına qarşı çıxdılar. Bənzər münasibəti Rusiyaya qarşı da sərgiləyirlər. Çünki ermənilər üçün müqəddəs heç nə yoxdur. Hansı ki, Qriboyedov sayəsində süni şəkildə Qafqazın demoqrafik tərkibi dəyişdirildi. O vaxt Çar İmperiyası Türk dünyasına qarşı məqsədyönlü şəkildə belə siyasət aparırdı. Zamanla öz məqsədlərinə nail də oldular. Ancaq bunun qarşılığında ermənilər Rusiyaya minnətdar olmaq əvəzinə, fərqli mövqe ortaya qoyurlar. Bu da onların xislətindən irəli gələn bir şeydir.

Son vaxtlar erməni mediasında Rusiyaya qarşı silsilə xarakterli tənqidi materiallar dərc olunur. Bu tendensiya iki il əvvəl ölkədə baş verən hakimiyyət dəyişikliyindən sonra genişlənib. Ermənilər hesab edirlər ki, Rusiyanın sayəsində onlar ərazilərini genişləndirə biliblər. Artıq Rusiya onlara elə də lazım deyil. Əsas məsələ iqtisadi inkişafdır. İqtisadi inkişafı isə Qərblə qurulan əlaqələrdə görürlər. Bax, bütün bunların kökündə dayanan əsas faktorlardan biri də budur".

***Vidadi ORDAHALLI***

# Ermənistan ordusunda qeyri-döyüş ölümləri və intiharlar ölkə mediasının bir saylı mövzusu oldu - "məzuniyyətdən qayıtdınsa, nəsə verməlisən"...

***Daşdəmir Əliyev:** "Bütün bu faktlar bir daha sübut edir ki, Ermənistanda ordu adında olan, əslində isə tərkibi kriminal elementlərlə dolu bir toplum mövcuddur"*

**Cari ilin 1 yanvar tarixindən fevralın 13-dək olan müddətdə Ermənistan ordusunun 10 əsgəri ölüb. Onların hamısı qeyri-döyüş şəraitində həyatını itirib. Qeyd edək ki, ölüm hallarının 2-si iki gün əvvəl qeydə alınıb. Qondarma "DQR" ərazisində yerləşən hərbi hissələrdən birində 20 yaşlı əsgər Vaqram Avakyanın ölümü Ermənistanda yenidən əsgər ölümləri məsələsini gündəmə gətirib.**

İstintaq tələm-tələsik belə bir qənaətə gəlib ki, əsgər özünəqəsd nəticəsində ölüb. Lakin əsgərin qohumları müstəntiqlərin bu qənaəti ilə razılaşmayaraq, onu basdırmaqdan imtina ediblər. Bildiriblər ki, əsgərin ölüm səbəbləri müəyyən olunmayana qədər dəfni həyata keçirməyəcəklər. İnsident geniş ictimai rezonans doğurub. Nəticədə təkrar istintaq zamanı Avakyanın əsgər yoldaşları David Movsisyan, Xaçik Qasparyan, Spartak Avetisyan barələrində onu ölüm həddinə çatdırmağa görə təhqiqat başlanıb. Ən qalmaqallı məsələ isə o olub ki, saxlananlardan biri - Movsisyan parlamentin keçmiş deputatı Arakel Movsisyanın oğludur.

Artıq Ermənistan mediasında bu mövzu ən çox müzakirə olunan trendə çevrilib. Bildirilir ki, rüşvət və korrupsiya Ermənistan ordusunun iliyinə işləyib. Hətta vəziyyət o həddə çatıb ki, məzuniyyətdən qayıdan əsgərlər zabitlərə nəsə ödəməyəndə onları ölüm həddinə çatdırırlar. Ermənistan parlamenti guya ordudakı neqativliklərin qarşısını almaq üçün qanun layihəsi hazırlamaq istəyir. Açıq şəkildə bildirirlər ki, kriminal cəmiyyətə və dövlətə müharibə elan edib. Ermənistan ordusunda baş verən qeyri-döyüş itkilərinin artımının səbəbi nə ilə izah edilə bilər?

Hərbi ekspert Daşdəmir Əliyev qəzetimizə bildirdi ki, Ermənistan ordusunda baş verən bu cür hallar onların nizami orduya sahib olmamaları ilə bağlıdır: "Erməni ordusu SSRİ dağıldıqdan sonra formalaşa bilməyib. Ermənistan ordusunda "dedovşina" erməni cəmiyyətini münaqişənin güclənməsi ehtimalı baxımından qorxudur. Vaqram Avakyanın faciəsi ölkənin müasir tarixində tək hal deyil. Ötən ilin sonlarında Ermənistanı həqiqi hərbi xidmətdə olan əsgər Artur Adjamyanın ölümü bir-birinə vurdu. Onun qohumları da özünəqəsd faktını qəbul etmədiklərini bildirdilər. 2019-cu ilin noyabrında hərbi hissələrdən birinin silah otağında əsgər Erik Arutunyanın cəsədi aşkarlandı. Əsgərlər arasında qeyri-formal dominantlığa səbəb fiziki qüvvə, mənəvi-iradə keyfiyyətləri və yerliçilik prinsipləri əsas resurslardır. Əsgərlərin valideynləri həll olunmayan münaqişə fonunda onsuz da narahat durumdadırlar. Məhz yerliçilik məsələsi də gərginlik yaradan amillərdəndir. Başqa sözlə, "qarabağlılar"ın "gümrülülərə" və yaxud "yerevanlılara" necə yanaşacaqları bəlli deyil. Ermənistanda hərbçilərə münasibət son vaxtlar xeyli dəyişib. Çünki ordu bu cinayətlərin sayını gizlətməyə çalışır. Dövlət imic itkilərinə yol verməməyə cəhd edir. Bu məsələdə müasir erməni ideologiyasında millitarist ritorika həlledici rol oynayır. Əhaliyə yeritməyə çalışırlar ki, erməni mövqeləri güclüdür. Hakimiyyət orqanları və hüquq-mühafizə orqanları süni şəkildə ölüm hallarını azaltmağa çalışırlar. Yüksək rütbəli erməni məmurlarının övladları işğal altında olan Qarabağda öz əsgər yoldaşlarını terror edirlər. Belə informasiyanı erməni kütləvi informasiya vasitələri mütəmadi yayırlar.

2019-cu ildə Ermənistan ordusunda (işğal edilmiş Qarabağ ərazisində dislokasiya olunan bölmələr də daxil olmaqla - red.) baş verən ölüm hadisələrinə dair Ermənistan Hərbi Prokurorluğundan 49 hal, Müdafiə Nazirliyindən 47 hal barədə məlumat toplanıb. Bu məlumatlara 2019-cu ilin oktyabr-noyabr ayları ərzində işğal altında olan Qarabağ ərazisində dislokasiya olunan bölmələrdə ölən hərbi qulluqçuların sayı daxil edilməyib. 3-cü rəsmi mənbə olaraq Ermənistan İstintaq Komitəsinə gəlincə, bu qurumun məlumatlarına əsasən, 2019-cu ildə Ermənistan ordusunda baş verən ölüm hadisələrinin sayı 28 olub. Maraqlıdır ki, İstintaq Komitəsi tərəfindən digər 2 rəsmi mənbənin qeyd etmədiyi 1 hərbi qulluqçunun adı açıqlanıb. Bütün bu faktlar bir daha sübut edir ki, Ermənistanda ordu adında olan, əslində isə tərkibi kriminal elementlərlə dolu bir toplum mövcuddur. Bu psixoloji vəziyyət oradakı gərginliyi daha da artıracaq".



***Məhəmmədəli QƏRİBLİ***

# Qazaxıstan şokda... Nazarbayevin nəvəsi Britaniyadan siyasi sığınacaq istədi



**Qazaxıstanın ilk Prezidenti Nursultan Nazarbayevin nəvəsi Aysultan Nazarbayev Böyük Britaniyadan siyasi sığınacaq istəyib.**

Sputnik Azərbaycan xəbər verir ki, bu barədə Aysultan Nazarbayev öz "Facebook" səhifəsində bildirib.

Qazaxıstan liderinin nəvəsi qərarının ailəsi tərəfindən olan təzyiqlə bağlı olduğunu bildirib.

O bəyan edib ki, ölkədə olan korrupsiya faktlarına dair məlumatları var.

Nazarbayev eyni zamanda vurğulayıb ki, bütün təfərrüatları Böyük Britaniyanın "Times" nəşrinə açıqlayıb və buna dair məqalə yaxın vaxtlarda dərc olunacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Yeni Qarabağ savaşında Azərbaycan Ordusunun qabağına qarşı tərəfdən çıxmağa adam tapılmayacaq

**Azərbaycan ərazilərini işğal altında saxlaması Ermənistana, digər sahələrlə yanaşı, ordu sferasında da ciddi problemlər yaşadır. Düşmən ordusunda yaşananlar, artan itkilər də qeyd olunanların real təsdiqi hesab edilir. Belə ki, təkcə cari ilin 1 yanvar tarixindən fevralın 13-dək olan müddətdə Ermənistan ordusunun 10 əsgəri ölüb. Onların hamısı qeyri-döyüş şəraitində həyatını itirib.**

Qeyd edək ki, ölüm hallarının 2-si fevralın 12-də qeydə alınıb. Həmin gün saat 11:30 radələrində 2000-ci il təvəllüdlü Tiqran Manvelyan aldığı güllə yarasından ölüb. Onun ölüm səbəbi araşdırılır. Bundan başqa, 2019-cu ildə hərbi xidmətə çağırılan Tiqran Mxoyan ona təhkim olunan silahla baş nahiyəsinə atəş açaraq özünə qəsd edib. Bir neçə gün əvvəl də Ermənistanın üç hərbçisi Sünik vilayətində qar uçqunu altında qalaraq ölüb. Bildirilir ki, axtarış zamanı müqavilə əsasında xidmət edən 28 yaşlı Karapet Nazaryan, 25 yaşlı Tiqran Arzumanyan və 24 yaşlı Nver Şahbazyan ölmüş vəziyyətdə tapılıb. Qeyd edək ki, Ermənistanın indi Sünik adlanan vilayəti qədim Azərbaycan torpaqları olan Göyçə mahalının ərazisində formalaşıb. Ehtimal edilir ki, qar uçqununa düşən hərbçilər ya Naxçıvanla sərhəddə, ya da Kəlbəcər istiqamətində olublar. Rəsmi məlumatlara görə, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında yanvarın 30-da əsgər Vahram Avakyan intihar edib. İntihar etmiş əsgərin yoldaşlarından David Mövsisyana, Haçiq Qasparyana, Spartak Avetisyana qarşı ittiham irəli sürülüb. Amma əsgərin valideynləri bildirir ki, övladları qətlə yetirilib. Onlar həlak olanın ölümü ilə bağlı "intihar damğası"nı götürməyi və onun ölümündə təqsirkarların adlarının açıqlanmasını tələb edirlər. Elə bundan sonra hərbçinin qohumları Armavir əyalətindən İrəvana aparan yolu bağlayıblar. Ermənistanın müdafiə naziri David Tonoyan özü də məsələyə müdaxilə etməli olub. Ermənistanın "Joğovurd" nəşri baş verənlərlə bağlı yazır ki, məhz etirazlardan sonra baş verənlərin intihar hadisəsi olmadığı üzə çıxdı: "Maraqlıdır ki, əsgərin qohumlarının qəzəbini sakitləşdirməyə niyə nizamanaməyə uyğun olaraq qarşılıqlı münasibətlər və ümumiliklə ordu ilə heç bir əlaqəsi olmayan Tonoyan getdi. Buna, qeydşərtsiz olaraq, Ermənistan ordusunun Baş Qərargah rəisi Artak Davtyan cavabdehdir. Eləcə də Tonoyan ictimaiyyətin narazılığını yumşaltmaq üçün hadisənin intihar olmadığı barədə rəy bildirməyə məcbur oldu. Əsgərin yaxınları intihar damğasının götürülməsində, övladlarını öldürənlərin adlarının açıqlanmasında israr edirdilər. Məhz bunlardan sonra Ermənistan istintaq komitəsi rəsmi olaraq Avakyanın ölüm hadisəsi ilə bağlı açılan cinayət işi çərçivəsində onun əsgər yoldaşları David Mövsisyana, Haçiq Qasparyana, Spartak Avetisyana qarşı ittiham irəli sürdüyü barədə açıqlama yaydı. Həmin şəxslərin Ermənistan Cinayət Məcəlləsinin 359-cü maddəsinin 3-cü hissəsi üzrə nəzərdə tutulmuş cinayət əməli törətdikləri şübhəsi ilə həbs edildikləri bildirilib. Bu maddə aralarında tabeçilik münasibətləri olmadığı halda hərbi qulluqçular arasında qarşılıqlı münasibət qaydalarının pozulmasını nəzərdə tutur. Bu o deməkdir ki, bizim ölkəmizdə küçə mühakiməsi baş verir. Bir yerə toplaşan şəxslər kimin hansı maddə üzrə cəzalandırılmasına qərar verirlər. Ən maraqlısı odur ki, intihar halı baş verməmişdisə, elə hadisə baş verən gün bu necə elan edilə bilərdi və qatil kimdir? Təbii ki, hakimiyyət və ordu rəhbərliyi. Onların siyasəti çox belə itkilərin olacağını deməyə əsas verir".

Digər itkilər də cari ilin ötən dövrünün erməni ordusu üçün müsbət keçmədiyini göstərir. Əslində belə hesab edilir ki, düşmən ordusunda baş verənlər ermənilərin hərbçi itkilərinin yenə kifayət qədər çox olacağını indidən tam qətiyyətlə deməyə əsas verir. Ermənistan parlamentində hökumətin sual-cavab iclasında millət vəkili Arman Babacanyanın dedikləri də bunun təsdiqidir: "43 gündə 10 nəfər qeyri döyüş itkimiz olub, son 13 gündə isə 7 itki vermişik, artıq bu, baş nazirin şəxsi diqqətində olan məsələyə çevrilməlidir. Yanvarın 28-də olduqca anlaşılmaz şəkildə baş nazir hərbi polis rəisi Artur Bağdasaryana "general-mayor" rütbəsi verdi, bunun səbəbini bilmirik. Həmçinin bununla bağlı baş nazir açıqlama verməlidir". Amma erməni mediası yazır ki, orduda baş verənlərə görə hansısa ədalət gözləməyinə dəyməz. Ötən il dekabr 2-də işğal altında olan Qarabağda ölən yezidi hərbi qulluqçu, 21 yaşlı Artur Acamyanın babası Xativ Acamyan da bunu xüsusi olaraq vurğulayır. O, nəvəsinin timsalında buna bir daha əmin olduğunu qeyd edir: "Ermənistan baş naziri Nikol Paşinyanın nəvəmin ölüm işinə gedişat verilməsi ilə bağlı vəd verməsinə baxmayaraq, indiyə qədər əhəmiyyətli heç nə edilməyib. Paşinyan da Ermənistan parlamentinin müdafiə komissiyasının rəhbəri Andranik Köçəryan kimi başımızın altına yumşaq yastıq qoyur. Bu nə birinci, nə də sonuncu hadisə olacaq, çünki orduda intizam yoxdur, Ermənistan ordusu həbsxanadan pisdir".

Həqiqətən də Ermənistan ordusunda qarşılıqlı münasibətlər və bunun nəticəsində baş verən qətllər, intihar halları burada əsl xaosun hökm sürdüyünü göstərir. Erməni siyasi şərhçi Akob Badalyan qeyd edir ki, ölkədə hakimiyyət dəyişsə də, orduda ciddi və müsbət istiqamətdə dəyişən nəsə yoxdur:"Orduda baş verən faciəli ölümlər, faktiki olaraq, "görünməmiş" xarakter almağa doğru gedir və bunlara qarşı ictimai reaksiya hakimiyyəti baş verə biləcək hadisələrə hazır olmağa məcbur edir. Digər tərəfdən, siyasi baxımdan dalan yaradır və ordu ətrafında gərgin vəziyyət formalaşdırır. Təəssüf ki, sürətli və asan həll yolları olmayan, dərinliyi mədəni olan dəyərlər sistemi ilə həddindən çox mürəkkəb bir problemlə qarşılaşmışıq. Bir məqamla bağlı baş nazir bəyan etdi ki, erməni ordusu dünyanın ən intellektual ordularından biri olmalıdır. Buna nail olmaq üçün erməni intellekti öz əsas məsələlərinin və missiyasının dərin müzakirələri, düşüncə və ideyaların istehsalı ilə orduya yönləndirilməlidir. Bunun əksi isə yenə də əsgərlərdən oğurluq edilməsidir. Elə erməni ordusunda da məhz bu baş verir. Amma nəticələr daha acınacaqlıdır. İtirdiyimiz hərbçilərin sayı sürətlə artır. Ermənistanda demoqrafiya sahəsində problemlərin olması da heç kimə sirr deyil. Məhz bu şəraitdə hərbçi itkisi Ermənistan üçün ikiqat zərbədir. Ən azı o baxımdan ki, onların yreini doldurmaq getdikcə çətinləşir". Elə ekspertlər də Akob Badalyanın həyəcan təbili çalmasını əbəs saymır. Çünki erməni ordusunun şəxsi heyətlə komplektləşdirilməsi getdikcə daha çətin hal alır. Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun Ermənistandakı nümayəndəsinin müavini Tsovinar Arutunyan bildirir ki, Ermənistanda əhalinin azalmasında əsas amil əvvəlki kimi miqrasiyadır. O xatırladır ki, 1990-cı illərin əvvəllərindən bir milyondan çox insan Ermənistanı tərk edib. Nümayəndənin sözlərinə görə, ölkədə işsizlik səviyyəsinin yüksək olması və iş yerlərinin kifayət qədər olmaması miqrasiyanın əsas səbəblərindən biri kimi götürülür. Bununla yanaşı, Arutunyan iş axtaran gənclərin, xüsusilə də yeni məzun olanların rastlaşdıqları problemlərdən də söz açıb: "2009-cu ildə Əhali Fondunun Ermənistanda keçirilmiş bir sorğusunda respondentlərin təxminən 44%-i Ermənistanda övladlarının gələcəyini görmədiklərini söyləyib. Bu narahat rəqəmin arxasında ədalətin olmaması, qanunun aliliyinin özünü göstərə bilməməsi, şəxsin özü və övladları üçün narahatlığı kimi psixi-sosial səbəblər də var idi. Psixoloji atmosferin, qanunun aliliyinin və iqtisadi amillərin dəyişməsi bu sahədə müsbət dəyişikliyə səbəb ola bilər. Amma bunlar yoxdur. Ölkəni tərk edənlərin arasında kişilərin 82,1%, qadınların 17,9%-nin təmsil olunması nəzərə alınsa, mənzərə narahaetdicidir. Kişilərin daha çox sayda ölkəni tərk etməsi ordunun şəxsi heyətlə təminatına da ciddi təsir edir. Eləcə də erməni qadınların xarici vətəndaşlarla ailə qurmaları ciddi problemdir. Demoqrafiya bu səpkidə də Ermənistanın böyük problemi kimi xarakterizə oluna bilər".

Ümumiyyətlə, immiqrasiya məsələləri üzrə digər ekspertlər xaricdə daimi yaşamaq və yaxud iş axtarmaq məqsədilə ölkəni tərk edənlərin sayının ildən-ilə artması nəticəsində Ermənistanda demoqrafiyanın kəskin həddə çatması barədə xəbərdarlıq edir. Daha bir erməni ekspert Ruben Yeqanyan etiraf edir ki, Ermənistanda immiqrasiya siyasəti getdikcə qorxulu vəziyyət alır. O, ölkədəki mövcud sosial-iqtisadi çətinliyin insanların psixologiyasına təsir edən başlıca amil olduğunu bildirərək, sistemli islahatlara ehtiyac duyulduğunu, siyasi, iqtisadi və sosial sahələrdə köklü dəyişikliklər edilməsinin vacibliyini vurğulayıb. Lakin bildirir ki, insanların bu sahədə Paşinyana olan ümidləri də özünü doğrultmayıb. İmmiqrantların daimi yaşayış məqsədilə Rusiyaya və Avropa ölkələrinə getmələrindən, vətənlərinə dönməkdən boyun qaçırmalarından söhbət açan ekspert hesab edir ki, erməni immiqrantların əsasını kişilər təşkil edir. Bu isə effektiv əmək resurslarını azalmasına, ordunun çağırışçı ilə təminatına mənfi təsir edir. Onun sözlərinə görə, Ermənistanda iqtisadi vəziyyətin ağırlığı və işsizlik səbəbindən ölkəni tərk edən insanların çox cüzi hissəsi doğma vətənlərinə qayıtsalar da, bir qədər sonra onlar yenidən ölkəni tərk etməyə məcbur olurlar. Məhz belə vəziyyətdə onların yeniyetmə övladlarını da özləri ilə xaricə aparması, ailəlikcə Ermənistanı tərk etməsi çətin vəziyyət yaradır. Bu fonda ekspert həyatını itirən erməni hərbçilərinin yerinin doldurulmasının daha çətin olduğunu vurğulayır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanlıların öz yurdlarından ermənilər tərəfindən zorakı deportasiya tarixləri...

## ***Nuru Məmmədov:*** *"...Növbəti dəfə azərbaycanlıların Ermənistan SSR ərazisindən kütləvi şəkildə köçürülməsi siyasəti ortaya atılır"*

**İyirminci yüzillik Azərbaycan türklərinin kütləvi soyqırım və deportasiya aktları ilə üzləşdiyi bir dövrdür. Bir əsrdə dəfələrlə soyqırıma və deportasiyaya məruz qalan soydaşlarımız ermənilərin törətdikləri terror hadisələrindən hər zaman ciddi əziyyət çəkiblər. Dünyanın gözü qarşısında soydaşlarımıza qarşı baş verən cinayət aktlarına beynəlxalq aləm tərəfindən hüquqi-siyasi qiymət verilməyib, insan haqlarını əllərində bayraq edən beynəlxalq təşkilatlar bunu susqunluqla qarşılayıblar.**

## II yazı

Azərbaycan tarixçiləri ermənilərin azərbaycanlılara qarşı törətdikləri deportasiya aktlarını təsdiqləyən faktları, sənədləri nəinki Qafqaz respublikaları arxivlərindən, hətta dünyanın bir sıra arxivlərindən əldə ediblər. Tariximizə qanla yazılan 1905-1906-cı illər, eləcə də digər dövrlər ciddi şəkildə araşdırılıb.

Tarixçi-alim Nuru Məmmədov qeyd edir ki, XX əsr Azərbaycan tarixinin ağrılı-acılı səhifələrindən, faciələrlə dolu dövrlərindən biri soydaşlarımızın dədə-baba torpaqları olan Qərbi Azərbaycandan kütləvi şəkildə zorakılıqla deportasiya olunmasıdır. "Erməni millətçilərinin riyakar və məkrli siyasəti nəticəsində on minlərlə azərbaycanlı "könüllülük" pərdəsi altında, acı göz yaşları axıda-axıda, yüzlərlə, minlərlə qurban verə-verə doğma yurdlarından zorla çıxarılıb, fəryad çəkə-çəkə sürgünə məruz qalıb.

Erməni millətçilərinin şovinist siyasəti bütün XIX-XX əsrlər boyu mərhələ-mərhələ davam etdirilib, deportasiyalar və soyqırımlar nəticəsində minlərlə dinc azərbaycanlı amansız formada məhv edilib. Ulu öndər Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanda deyilir: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

Azərbaycan torpaqlarına göz dikən erməni millətçiləri monoetnik və "türksüz Ermənistan" uğrunda gizli və bəzən leqal müharibələr aparmışlar. Onlar ən alçaq və rəzil mübarizə formalarından istifadə edərək "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək üçün saxta ideoloji tezislər formalaşdırmış, terrorçu təşkilatlar yaratmış, türk xalqlarına və azərbaycanlılara qarşı genişmiqyaslı qətllər və vəhşiliklər törətmişlər.

Yerli olmayan bu hiyləgər insanlar çox böyük bir məkrlə Qafqazda özlərinə məskən salmış və tarixin müəyyən zamanlarında hissə-hissə torpaqlar ələ keçirərək qondarma Ermənistan dövləti yaratmışlar. Sonra isə "böyük Ermənistan" imperiyası yaratmaq üçün məkrli planlarını həyata keçirməyə çalışmışlar. XX yüzilliyin əvvəllərində Türkiyədə və İranda türk-müsəlman xalqlarını kütləvi şəkildə qıran və azərbaycanlıların soyqırımını təşkil edən erməni cəlladları həmin yerlərdə ciddi müqavimətə rast gəlmiş və istədiklərinə nail ola bilmədikləri üçün zərbənin ağırlıq istiqamətini Qafqaza yönəltmişdilər. Havadarlarının köməyindən bəhrələnən ermənilər 1918-ci il mayın 28-də "Ermənistan Respublikası" elan etdikləri zaman bu dövlətin paytaxtı belə yox idi və Azərbaycan Milli Şurası 1918-ci il mayın 29-da keçirilən iclasında səs çoxluğu ilə İrəvan şəhərini Ermənistan Respublikasının paytaxtı kimi tanımağı mümkün saymış və İrəvanı ermənilərə "bağışlamışdı". Qeyd etmək lazımdır ki, erməni millətçilərinin təbiətinə və xarakterlərinə yaxşı bələd olan bəzi Milli Şura üzvləri həmin iclasda bu qərara qəti etiraz etmişdilər. Məsələn, Bağır bəy Rzayev Milli Şurada təmsil olunmuş irəvanlılar adından demişdi: "Müstəqil Azərbaycan uğrunda çalışmaqla yanaşı, rica edirik bizi, erməni respublikası ərazisində qalanları da unutmayasınız". Tarix uzaqgörənliklə deyilənləri təsdiqlədi".

Alim qeyd edir ki, beləliklə, daşnaklar "paytaxtsız" erməni respublikası yarandığı gündən şirnikərək Azərbaycan torpaqlarını çox böyük bir iştahla ələ keçirməyi qarşılarına məqsəd qoymuşlar. Əhalinin böyük əksəriyyətini azərbaycanlıların təşkil etdiyi Lori-Pəmpək, Şörəyal, Zəngəzur qəzalarında və Göyçə mahalında kütləvi qırğınlar törədərək bu yerləri silahlı yolla ələ keçirməyə cəhd etmişdilər. Onun yazdığına görə, erməni silahlı birləşmələri ərazidə yaşayan azərbaycanlıları ucdantutma qırmışdılar. Törətdikləri vəhşiliklər nəticəsində 1918-1920-ci illərdə Ermənistanda yaşayan 575 min azərbaycanlının 565 mini öldürülmüş və ya öz yerlərindən qovulmuşdu.

"Erməni millətçiləri Moskvadakı və xaricdəki havadarlarına arxalanaraq vaxtaşırı öz məkrli niyyətlərini həyata keçirməyə çalışmışlar. Ötən əsrin 40-cı illərində Moskvanın, bilavasitə daşnak A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda "Qarabağ hərəkatı" və "Qarabağ komitəsi" yaradılmışdı. 1945-ci ilin payızında Ermənistan KP MK-nın birinci katibi Q.Harutyunov Dağlıq Qarabağ bölgəsinin onlara verilməsi haqqında məsələni qaldırmış və bu barədə Stalinə məktubla müraciət etmişdi. Stalinin dərkənarı ilə məktub Malenkova göndərilmişdi. Erməni şovinistinin həyasızlığı o yerə çatmışdı ki, əgər məsələ müsbət həll olunardısa, onda Qarabağın keçmiş mərkəzi və 1920-ci ildə dağıdılmış Şuşanın bərpası haqqında hazırlanmış əlavə təkliflər də hökumətə təqdim olunacaqdı. ÜİK(b)P MK-nın o vaxtkı katibi G.M.Malenkov məsələyə dərhal reaksiya verir və məktubu 1945-ci il noyabrın 28-də Azərbaycan K(b)P MK-nın birinci katibi M.Bağırova rəy üçün göndərir. M.Bağırov dekabrın 10-da (tam məxfi qriflə) ona kəsərli cavab məktubu yazır. Burada Ermənistanın Dağlıq Qarabağla bağlı bütün iddialarının heç bir elmi əsası olmadığı bildirilir, eyni zamanda göstərilir ki, Şuşa istisna olmaqla, Azərbaycan həmin təklifə etiraz etmir, ancaq bir şərtlə - Ermənistan SSR-də, Gürcüstan SSR-də və Dağıstan MSSR-də əhalinin əksəriyyəti azərbaycanlılar olan, Azərbaycanla həmsərhəd, tarixən Azərbaycan torpağı olan ərazilər geri qaytarılsın. Belə tutarlı faktlar qarşısında qalan Kreml rəhbəri məsələyə nöqtə qoyub məktubları arxivdə "dəfn" etməyə qərar verir. Lakin erməni fitnəkarları yenə də dinc dayanmır, müxtəlif avantürist planlar hazırlayırlar. Növbəti dəfə azərbaycanlıların Ermənistan SSR ərazisindən kütləvi şəkildə köçürülməsi siyasəti ortaya atılır. Bu, azərbaycanlı əhalinin ucdantutma deportasiya edilməsi siyasəti idi. Onu 1948-1953-cü illərdə reallaşdıra bildilər".

N.Məmmədovun bildirdiyinə görə, Azərbaycan xalqına qarşı yönəlmiş bu xəyanətin tarixçəsi belə olub: İkinci Dünya Müharibəsinin qızğın çağında - 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək SSRİ, ABŞ və İngiltərə rəhbərlərinin - Stalin, Ruzvelt və Çörçillin iştirakı ilə keçirilən Tehran konfransında Sovet-İran münasibətləri müzakirə olunarkən erməni diasporu SSRİ Xarici İşlər naziri V.Molotova müraciət edərək, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istəmişdi. Məsələ ilə bağlı Molotov elə oradaca Stalinlə danışdıqdan sonra ermənilərin köçürülməsinə razılıq vermişdi. "Arutyunov bu fürsətdən istifadə edib köçürülmə ilə əlaqədar azərbaycanlıların dədə-baba torpaqlarından deportasiyası barədə qərar verilməsinə nail olur. Belə bir qərar SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 oktyabr 1946-cı il tarixli fərmanı idi. Bu fərman qərəzli və fərqli idi. Yalnız "repatriasiya" (vətənə qaytarılma) terminindən istifadə olunurdu. Başqa sözlə, SSRİ-yə qayıdan hər hansı bir millətin nümayəndəsi sadəcə, "emiqrant", daha dəqiq söyləsək, "demiqrant" (mühacirətdən qayıdan adam) olduğu halda, erməni "repatriant", yəni "vətənə qaytarılan" adlanırdı. Ermənilərin repatriasiyası haqqında "Daşnaksütyun" partiyasının 1947-ci ilin iyununda keçirilmiş XIV konqresində qərar qəbul edilmişdi. Hər iki qərarda repatriasiyanın "azərbaycanlıların yaşadıqları torpaqların boşaldılması və Ermənistan sərhədlərinin genişləndirilməsi" şəraitində baş verəcəyi iddia edilirdi. Buna erməni Qriqorian kilsəsi də xeyir-dua vermişdi.

Beləliklə, azərbaycanlıların Ermənistan SSR adlanan ərazisindəki dədə-baba torpaqlarından kütləvi şəkildə qovulması prosesinin növbəti mərhələsi başlandı. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar verdi. Bu qərar Azərbaycan xalqı üçün gözlənilməz zərbə idi. Qərara "kolxozçu" sözünün əlavə edilməsi siyasi manevrdən başqa bir şey deyildi. 1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" yeni qərarında göstərilirdi ki, bu, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarına əlavədir. Hər iki qərarı Stalin imzalamışdı" - deyə bildirən alimin vurğuladığına görə, azərbaycanlı əhalisinin Ermənistan SSR ərazisindən kütləvi şəkildə köçürülməsi ilə əlaqədar tədqiqatçı-alim Lətifə xanım Həsənova maraqlı bir fikir söyləyir və onu tutarlı arqumentlərlə sübut etməyə çalışır. "Arqument yeni sənədin əldə edilməsidir. Həmin sənədə əsasən o, belə mülahizə yürüdür ki, azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsindən əvvəl geniş anti-Azərbaycan təbliğatı aparılıb və müxtəlif şayiələr yayılıb, azərbaycanlılara qarşı 43 səciyyəvi fakt qeydə alınıb. Bu mənfur millət Azərbaycan torpaqlarını ələ keçirmək və bu yerlərdən azərbaycanlı əhalini evakuasiya etmək üçün müxtəlif hiylələrdən və güclü təbliğat kampaniyasından istifadə etmişdi. Tarixi faktlardan məlumdur ki, Rusiya imperatoru I Pyotrun Azərbaycana yürüşləri ərəfəsində ölkəmizin şimal bölgələrində onun imzaladığı manifest yayılmışdı. Rus qoşunlarının, qaniçən Sisianovun Gəncəyə hücumu ərəfəsində Gəncə əhalisi arasında təbliğat aparılmışdı. Təbliğat tədbirlərində ermənilər "fəallıq" göstərmiş, rusları öz himayədarları kimi dəfələrlə dəvət etmişlər.

Hətta ermənilər azərbaycanlıların kütləvi şəkildə köçürülməsi və xaricdəki ermənilərin boşalmış azərbaycanlı evlərində yerləşdirilməsi ilə kifayətlənməyərək onların Naxçıvanda da qalmamaları və gələcəkdə bu ərazinin Ermənistana birləşdirilməsi haqqında düşünürdülər..."

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# "Qaz OPEC"i çərçivəsində dünya qiymətlərinin tənzimlənməsində də Azərbaycan önəmli mövqeyə keçir

**Neftlə yanaşı dünya qaz bazarlarında baş verənlər, xüsusən də iqlim dəyişikliklərinin bu istiqamətdə göstərdiyi təsir indi hasilatçı ölkələr üçün ən həssas mövzulardan birinə çevrilib. Məsələ burasındadır ki, proseslərin gedişi cari ilin son rübünə kimi təbii qazın satış qiyməti baxımından müsbət heç nə vəd etmir.**

Məşhur "Vygon Consulting" şirkətinin analitikləri də bildirir ki, Avropa bazarında təbii qazın qiyməti 2020-ci ilin yaz-yay aylarında kəskin aşağı düşəcək. Analitiklərin proqnozlarına görə, həmin dövrdə təbii qazın min kubmetrinin qiyməti 100 dollardan da aşağı düşə bilər. Nəticədə Avropanın qaz bazarında hazırda əsas inhisarçı olan "Qazprom" şirkəti məcbur olub öz qazını ziyan hesabına sata bilər. Şirkətin araşdırmalar üzrə direktoru Mariya Belova qeyd edib ki, qiymətin bu cür kəskin aşağı düşməsinə qışın anomal isti keçməsi səbəb olacaq. Çünki qışın mülayim keçməsi üzündən Avropanın qaz anbarlarında rekord həcmdə yanacaq yığılıb. Şirkətlər Ukrayna üzərindən tranzitin dayandırılacağından narahat olaraq böyük ehtiyatlar yaradıblar.

"Qazprom ekspert" şirkətindən təsdiq ediblər ki, qiymətlər doğrudan da əhəmiyyətli ölçülərdə aşağı düşə bilər, artım isə ancaq 2020-ci ilin dördüncü rübündən başlayacaq. Analitiklər gözləyir ki, Avropa bazarında sıxılmış təbii qazın min kubmetrinin qiyməti orta hesabla 143 dollar təşkil edəcək. Və belə vəziyyət Avropa bazarlarına sıxılmış qaz çıxaran Amerika şirkətlərinə sərf etməyəcək, onlar təklifi azaldacaqlar. Avropa qaz bazarındakı bu situasiya Azərbaycan üçün də birbaşa əhəmiyyət daşıyır. Çünki 2020-ci ilin yayında Azərbaycanın "Şahdəniz" yatağının qazı "Cənub Qaz Dəhlizi" ilə ilk dəfə Avropa bazarına daxil olacaq. Bu dəhlizlə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropa bazarına istiqamətlənəcək. Belə vəziyyətdə qiyməti tənzimləmək üçün, hesab olunur ki, "qaz OPEC"i adlanan Qaz İxrac edən Ölkələrin Forumu məsələyə müdaxilə etməlidir.




Xatırladaq ki, Qaz İxrac edən Ölkələr Forumu 2001-ci ildə 13 qaz ixrac edən ölkə (Əlcəzair, Boliviya, Venesuela, Misir, İran, Qətər, Liviya, Nigeriya, Rusiya, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Trinidad və Tobaqo, Ekvatorial Qvineya) tərəfindən Tehran şəhərində yaradılıb, 2008-ci ildə Moskva şəhərində hüquqi olaraq təsis edilib. Təşkilatın mənzil-qərargahı 2009-cu ildən Qətər dövlətinin paytaxtı Doha şəhərində yerləşir. Forumun 12 əsas (Əlcəzair, Boliviya, Misir, Ekvatorial Qvineya, İran, Liviya, Nigeriya, Qətər, Rusiya, Trinidad və Tobaqo, Venesuela və BƏƏ) və 7 müşahidəçi (Qazaxıstan, Hollandiya, Norveç, İraq, Oman, Peru və Azərbaycan) üzvü var. Foruma üzv ölkələrdə dünyanın qaz ehtiyatlarının 70 faizi, boru kəmərləri ilə ticarətin 35 faizi, maye qaz istehsalının 85 faizi cəmləşir. Forumun əsas məqsədi üzv ölkələrin təbii qaz ehtiyatları üzərində suveren hüquqlarının müdafiəsi imkanlarının sərbəst planlaşdırılması, ekoloji nəticələri nəzərə alan davamlı və effektiv inkişafın təmin edilməsidir. Bu prosesdə dünya qaz hasilatında müşahidə olunan tendensiyalar, tələb və təklifin cari və gözlənilən balansı, qaz sənayesində yeni texnologiyalar və digər qlobal problemlərin təhlili forumun fəaliyyətinin əsas istiqamətlərini təşkil edir.

Yəni bu o deməkdir ki, Forum qiymət siyasətinə müdaxilə edə bilər. Foruma üzv dövlətlərin Azərbaycanla əməkdaşlıqda maraqlı olduqları və qlobal qaz bazarında ölkəmizin mühüm rol oynadığı qəbul olunur. Hətta Azərbaycanın Foruma tamhüquqlu üzv məsələsi də gündəmdədir. Bakı da qiymət məsələsində artıq Forumun qəti hərəkətə keçməsini istəyir. Bunu enerji məsələləri üzrə ekspert Aleksandr Sobko da vacib sayır. O bildirir ki, qlobal qaz bazarında misli görünməmiş bir vəziyyət hökm sürür: "Və bu heç də mübaliğə deyil. Asiyada hazırda maye təbii qaza bundan əvvəl heç vaxt müşahidə olunmamış birja qiymətləri qoyulur: kotirovkalar psixoloji əhəmiyyətli 1 milyon BİV (Britaniya İstilik Vahidi) üçün 3 dollar səviyyəsinə çatıb ki, bu da min kubmetrə görə təxminən 105 dollara bərabərdir. Avropada isə birja qiymətləri bundan da aşağıdır, 95 dollar səviyyəsində.

Bu cür vəziyyətin yaranmasına bir neçə amil səbəb olub: buraya həm Şimal yarımkürəsinin, demək olar ki, bütün regionlarında izlənən çox isti qış, həm yeni istehsalatların işə salınması ilə maye qaz bolluğunun yaranması, həm də Ukraynadan qaz tranziti böhranına hazırlıqlar səbəbilə Avropanın qaz anbarlarının həddindən artıq doldurulması daxildir. Bütün bunlarla yanaşı, Çində iqtisadi fəallığın kəskin şəkildə azalmasına səbəb olmuş koronavirus yalnız qaz bazarına deyil, həm də bütövlükdə xammal bazarındakı vəziyyətə təsir göstərib. Bununla bərabər, qiymət mənzərəsi bazar iştirakçılarında narahatlıq yaratmaya bilməz. Aşağı birja qiymətləri artıq elə bir vəziyyətə gətirib çıxarıb ki, şirkətlərin əksəriyyəti tam xərclərini maye qaz istehsalı ilə ödəyə bilmir. Cari qiymətlərlə isə istehsalçıların bir çoxu, hətta əməliyyat xərclərini də ödəyə bilmir. Hazırkı qiymətlərinin mövcudluğu şəraitində Amerikanın da ixracatı rentabelliyini itirmək həddinə yaxınlaşıb.

Məsələnin həlli üçün neft bazarında OPEC+ koalisiyası yaranıb ki, o da qiymətləri lazımi səviyyədə qoruyub saxlayır. "Qaz OPEC"inin yaradılması isə hazırkı şəraitdə olduqca vacibdir. Çünki bolluq şəraitində qiymətlər aşağı düşür. Əlavə problem ondan ibarətdir ki, neftdən fərqli olaraq qaz, xüsusilə də maye qaz ehtiyatlarını saxlamaq və yaratmaq çətindir". Ekspert hesab edir ki, istənilən halda, istehsalçıdar bazara müdaxilə etməlidir. Əks təqdirdə onlar özlərini çətin vəziyyətə sala bilər.

**_Ramil QULİYEV_**

# Ermənistanda orta əsrlər diktaturasının qurulmasına rəsmən start verildi

**Məlum olduğu kimi, aprelin 5-də Ermənistanda Konstitusiya Məhkəməsi məsələsi ilə bağlı referendum keçirilməsi nəzərdə tutulur. Amma belə görünür ki, bu proses Ermənistanda artıq indidən yeni gərginlyinin əsasını qoyub.**

Cəmiyyət və siyasətdə olanların əksəriyyəti baş verənləri hüququn qəsb edilməsi, Nikol Paşinyan diktaturasının möhkəmlənməsi kimi qiymətləndirir.

Məsələyə bu prizmadan yanaşan erməni siyasi şərhçi Yervand Bozoyan qeyd edir ki, Paşinyan Ermənistan prezidenti Armen Sarkisyanı referendum keçirilməsi haqqında fərmanı imzalamağa məcbur etməklə onu da tarixi cinayətinə ortaq edib: "Beləliklə, Ermənistan prezidenti referendum keçirmək barədə öz fərmanını imzalayaraq faktiki olaraq konstitusiya sistemini pozanların sırasına düşdü". O qeyd edib ki, Paşinyanın məqsədi Konstitusiya Məhkəməsini öz nəzarəti altına götürmək və ölkədə mütləq birhakimiyyətlilik qurmaqdır:

"Onun bu addımının 2018-ci ilin "inqilab" idealları ilə heç bir əlaqəsi yoxdur, ictimaiyyətin şüurlu hissəsinin böyük əksəriyyəti bunu başa düşür. Bəs bütün bunlar nəyə gətirib çıxara bilər? Paşinyan, əslində Ermənistanda öz mütləq birhakimiyyətliliyini qurmaq istəyir. Paşinyançı referendum qəbul olunsa, Ermənistan orta əsrlər diktaturası caynaqlarına düşəcək". Elə keçmiş deputat Karine Atsemyan da məsələyə bu rakursdan yanaşır: "Bizim hüquqşünaslara, hüquqşünasların böyük ordusuna inanmamaq üçün hər hansı səbəbimiz yoxdur və bu diletantlar qrupuna inanmaq üçün hər hansı səbəb olmayacaq. Onların öz rəhbərləri ilə birlikdə yalnız bir məqsədi var, konstitusiya sistemini ləğv etmək, bu məhkəməni ləğv etmək, insanları istədikləri insanlarla dəyişmək". O, aprelin 5-də baş tutacaq referendumun antidövlət və antikonstitusion addım olduğunu vurğulayıb:



"Onlar artıq referendum barədə qanunu pozaraq təşviqat kampaniyasına keçiblər, bütün bu edilənlər təhqirdir, bu sahədə onların rəqibləri yoxdur və ola da bilməz. Referendum elə bir prosesdir ki, Nikol Paşinyan yenidən küçədə - sevdiyi yerində olacaq, bağıracaqlar, onların düşmənləri və nifrət atmosferi yenidən yaranacaq".

Ermənistan Helsinki Komitəsinin sədri Avetik İşxanyan qeyd edir ki, Paşinyanın Konstitusiya Məhkəməsini ələ keçirmək planları üzündən ölkədə xaotik vəziyyət yaranır: "37-ci ildə baş verən hadisəni yada salmaq istəyirəm. Məktəb müəllimi direktor olmaq istəyir, zarafatla yazır ki, direktor əksinqilabi qrup yaradıb, direktoru bir neçə müəllimlə birlikdə aparıb güllələyirlər. Paşinyan da, həmçinin, Konstitusiya Məhkəməsini ələ keçirmək üçün bu məhkəmə sədrinə qarşı qurma cinayət işləri qaldırdı. Keçən ildən o, qanunazidd addımlar atır. İzdihamı məhkəmə üzərinə apardı, məhkəmnin qapılarını, girişlərini mühasirəyə aldı və yenə də alınmadı. İndi isə adını referendum qoyaraq başqa bir izdihamı arxasınca aparır. Beləliklə, Konstitusiya Məhkəməsinin kürsülərində öz adamlarını, oyuncaqlarını oturtmaq üçün daha bir demokratik vasitə, yəni referendum dəyərdən düşdü. Saxtakarlıq və ya axmaqlıq olan yerdə nikbinlik axtarmaq mümkün deyil. Reallıq Paşinyanın uğursuz olacağını, həm də dəhşətli dərəcədə uğursuz olacağını proqnozlaşdırır. Devrilmə qaçılmazdır. İnvestisiya və iqtisadiyyat üçün rahat bir atmosferə ehtiyacı olan bu kasıb ölkədə, nəinki sərmayə qalmayacaq, əksinə, bir çoxları bu avara hakimiyyətpərəstin və acgözün gözünə görünməmək üçün pullarını qaçıracaq. Həmin 37-ci ilin tədris rəhbəri direktor oldu, ancaq maraqlıdır ki, hətta həmin dövrlərdə də qurma iş verən şəxs 12 il sonra yalan ifadə verməsinə görə mühakimə olundu".

Ermənistanın "1in.am" portalı da baş verənlərin ölkə üçün müsbət heç nə vəd etmədiyini vurğulayır:"Konstitusiyanın dəyişdirilməsi üçün referendumun keçirilməsi, şübhəsiz, çoxqatlı və aralıq oyundur. Ermənistanda idarəçilik sisteminin effektivliyi problemi mövcuddur. Ölkədə kadr siyasəti hakimiyyətin müxtəlif qanadlarının maraqlarının toqquşması, lobbiçilik şəraitində formalaşır. Bu mənada o da diqqətçəkəndir ki, yaranmış problemlərə, Konstitusiya Məhkəməsində baş verən hadisələrə və referenduma, səsvermənin keçirilməsinə paralel olaraq, başqa əhəmiyyətli kadr dəyişikliyi baş verib. Nikol Paşinyan bir neçə gün öncə töhmət verilmiş Hərbi-Sənaye Komitəsinin sədri Avetik Kerobyanı istefaya göndərib. Ancaq bundan sonra da problem, səbəbi nə olursa-olsun, faktiki həll olunmayıb. Bu da daha dərin və çoxqatlı problemlərin mövcudluğunu növbəti dəfə göstərib. Buradakı problem, şübhəsiz, dərin siyasidir və hakimiyyətmüxalifət sferasındakı daxili qarşıdurmadan heç də az siyasi deyil. Amma faktdır ki, Ermənistanı yeni qarşıdurmaya da sürükləyir. Çünki Paşinyanın addımları hüquqa ziddir.

Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanın ailə üzvləri və bütün yaxınları hələ də siyasi təqiblərlə üzləşirlər. Onun vəzifəsindən çıxarılması üçün əvvəlcə Ermənistan konstitusiyasına dəyişiklik edilməli idi. Bu məqsədlə konstitusiyaya dəyişiklik edilməsi ilə bağlı qanun parlamentdə hakim partiyanın səs çoxluğu ilə qəbul edildi. Amma məqsəd odur ki, istənilən halda, Paşinyanın istəmədiyi Tovmasyan vəzifədən getsin və bəlkə də sonda həbsə atılsın. Onda dünyanın Ermənistana nə deyəcəyi də çox maraqlıdır". Hesab edilir ki, Paşinyan bununla ölkə daxilində də ciddi qarşıdurmanın əsasını qoyur.

***Nahid SALAYEV***

# Azərbaycanda cərimələrini ödəməyən xaricilərə də sanksiya tətbiq olundu

**Azərbaycan vətəndaşı olmayan bəzi şəxslərin ölkəmizdə olarkən yol hərəkəti qaydalarını pozmaq, hətta idarə etdikləri nəqliyyat vasitəsilə qəza törətmək kimi hallara da yol verirlər. Elə hallar olurdu ki, yol hərəkətini pozan əcnəbi buna görə heç bir cərimə ödəmədən ölkəmizi tərk edirdi.**




İndi isə belələrinə qarşı konkret sanksiya tətbiq olunub. Belə ki, əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ölkəmizə gəldiyi, yaxud Azərbaycanda icarəyə götürdüyü avtomobillərlə yol hərəkəti qaydalarını pozaraq cəriməni ödəmədən ölkədən çıxması hallarının qarşısı alınacaq.

Daxili İşlər Nazirliyindən mətbuata verilən məlumata görə, bu məqsədlə respublikanın bütün sərhəd məntəqələrində Baş DYP İdarəsi tərəfindən 5 dildə hazırlanmış buklet və plakat formasında olan xüsusi bildirişlərin paylanılmasına başlanıb.

Azərbaycan Respublikasının ərazisində yol hərəkəti qayda pozuntularına xüsusi texniki vasitələrin köməyi ilə nəzarət edildiyi üçün inzibati xətaya yol vermiş şəxslərin barəsində iştirakları olmadan elektron qərar çıxarılması, cərimə ödənişləri ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş güzəşt və dəbbə pulu, habelə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 17.1.7-ci maddəsinin tələblərinə əsasən, ölkəmizin ərazisində inzibati xəta törətmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin barələrində inzibati tənbeh tədbirləri icra edilənədək onların 2020-ci il fevralın 13-dən başlayaraq Azərbaycan Respublikasından getmələri müvəqqəti məhdudlaşdırılacaq.

## *Azər Allahverənov: "...bu hərəkətləri cəzasız qaldığı üçün bundan sui-istifadə edirdilər"*

Buklet formalı bildirişlər sərhəd-keçid məntəqələrində nəqliyyat vasitələri ilə ölkəyə daxil olan sürücülərə paylanır, plakatlar isə həmin məntəqələrdə yaxşı oxuna bilən yerlərdən asılıb.

Həmçinin, ilin əvvəlində xarici ölkə vətəndaşlarına tətbiqi nəzərdə tutulan qanunvericiliyin tələbləri barədə məlumat çatdırılması məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsilə səfirliklərə müraciət edilib.

Nəqliyyat sahəsi üzrə tanınmış ekspert Azər Allahverənov bununla bağlı "Bakı-Xəbər"ə bildirdi ki, ölkəmizə olan əcnəbilər nəqliyyat vasitələrini icarəyə götürərkən və idarə edərkən bu və ya digər formada inzibati xətalar törədirlər. "Amma burada bir nüans da var. Həmin əcnəbilər öz avtomobili ilə ölkəmizə daxil olur və burada olduğu müddətdə inzibati xəta törədir. Məntiqlədir ki, o inzibati xəta Dövlət Yol Polisi tərəfindən qeydə alınırsa, bununla bağlı sanksiyaların tətbiq edilməsi üçün qərar çıxarılır. Ancaq o qərardan irəli gələrək həmin şəxsin cərimə ödəməsi prosesi təmin edilməlidir. Təmin edilmədiyi halda, Miqrasiya Məcəlləsinin 17.1.7-ci maddəsində tələblər var. Ölkəmizin ərazisində inzibati xəta törətmiş əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin barəsində inzibati tənbeh tədbirləri icra edilənədək onların 2020-ci il fevralın 13-dən başlayaraq Azərbaycan Respublikasından getmələri müvəqqəti məhdudlaşdırılacaq. Yəni, faktiki olaraq, onlar cərimə ödəmədikləri təqdirdə ölkə ərazisindən çıxmaları məhdudlaşdırılır. Məhdudlaşdırma barədə qərarın verilməsi, onlara sanksiyaların tətbiq edilməsi ilə bağlı qurumlar arasında danışıqlar aparılır, işlər görülür. Bu mexanizmin necə işləyəcəyi ilə bağlı müzakirələr gedir. Hələ ki, mən bu haqda tam geniş şərh verə bilmirəm. Faktiki olaraq, ölkə ərazisində olan əcnəbilər nəqliyyat vasitələrini idarə edərkən inzibatı xətalara yol verirlər və onların bu hərəkətləri cəzasız qaldığı üçün əcnəbilər bundan sui-istifadə edirlər. Nəticə etibarilə də onlar törətdikləri xətaya görə heç bir məsuliyyət hiss etmirlər. Sanksiya mexanizmi tam olaraq işlək vəziyyətə salındıqdan sonra bu prosesin qarşısı alınacaq. Hesab edirəm ki, bununla bağlı müsbət nəticələr əldə oluna bilər. Ən azından, əcnəbilər biləcəklər ki, onlar hər hansı bir inzibati xəta törədirlərsə, buna görə cərimə sanksiyası var və ödəmədikləri təqdirdə ölkə ərazisini tərk edə bilməyəcəklər".

*"Ən azından, əcnəbilər biləcəklər ki, onlar hər hansı bir inzibati xəta törədirlərsə, buna görə cərimə sanksiyası var"*

Bundan beynəlxalq təcrübədə geniş istifadə edildiyini deyən A.Allahverənov hesab edir ki, qonşu Gürcüstan Respublikasında da artıq bu, tətbiq edilir. O ümid edir ki, Azərbaycanda bu mexanizm işlək vəziyyətə gətirildikdən sonra əcnəbilərin iştirakı ilə törədilən inzibati xətaların miqyası azalacaq.

***İradə SARIYEVA***

# Azərbaycanda onlayn yolla narkotik satan 27 nəfərlik dəstəni DİN-in Baş İdarəsi zərərsizləşdirdi

**Ölkə ərazisində, xüsusən onlayn yolla narkotik vasitə və psixotrop maddələrin satışını həyata keçirən mütəşəkkil cinayətkar dəstə üzvlərinin müəyyən edilərək tutulması istiqamətində ötən dövrlər ərzində Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən uğurlu əməliyyat tədbiri həyata keçirilib.**




Qeyd edilən əməliyyat zamanı onlayn yolla narkotik vasitə və psixotrop maddələrinAzərbaycan ərazisində satışını təşkil edən 27 nəfərdən ibarət mütəşəkkil dəstənin üzvləri zərərsizləşdirilib. Araşdırma zamanı müəyyən edilib ki, dəstənin rəhbərləri İstanbul şəhərində yaşayan Azərbaycan vətəndaşları Ağayar Ağazadə və qohumu Orxan Ağayev narkotiklərin onlayn satışını həyata keçirən şəbəkə yaradıblar. Qeyd edək ki, Ağayar Ağazadə dəstə üzvləri arasında tanınmamaq üçün "Baba", Orxan Ağayev isə "Orxan XX" kod adlarından istifadə edib. Müəyyən olunub ki, dəstə üzvləri gizli pərdələyici üsullardan istifadə edərək "Baba" və "Orxan XX"ın tapşırıqları əsasında narkotik vasitə və psixotrop maddələri Bakı şəhərinin müxtəlif yerlərində yerləşdiriblər. Sonradan şəbəkəyə daxil olan narkokuryerlər həmin yerlərin şəklini çəkib "Whatsapp" mesajlaşma sistemi ilə dəstə başçılarına göndəriblər. Baş İdarədə dəstə üzvlərinin ətrafında keçirilən əməliyyat-texniki tədbirlər nəticəsində onların narkotik vasitələrin satışını həyata keçirdikləri sosial şəbəkə hesabları, aralarındakı gizli sövdələşmələrin səs yazıları da müəyyən edilib.

Onlayn yolla narkotik sifariş verən adamlar pulu ödəmə terminalları vasitəsilə "Baba" və "Orxan XX"ın xaricdəki bank hesablarına köçürəndən sonra onlar narkotik vasitələri götürmələri üçün həmin yerlərin şəklini müştərilərə ötürüblər. Dəstə başçıları narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilməsində isə Türkiyə Respublikasında yaşayan Azərbaycan vətəndaşlarından istifadə ediblər.

Araşdırma zamanı müəyyən edilib ki, narkotik vasitələrin satışından əldə edilən külli miqdarda pul vəsaitləri dəstənin başçısı Ağayar Ağazadənin anası Elvira Ağayevada cəmlənib. Daha sonra o, çoxsaylı bank kartlarından istifadə etməklə pul vəsaitlərini nağdlaşdıraraq həmin pulları Türkiyədə yaşayan oğluna göndərib.

Mütəşəkkil cinayətkar dəstə üzvlərinin yaşadıqları mənzillərə və Bakı şəhərində narkotik vasitələrin saxlandığı gizli yerlərə baxış keçirilən zamanı külli miqdarda narkotik vasitə və psixotrop maddələr, müxtəlif ölkərə məxsus mobil nömrələr, xeyli sayda bank kartları və sair sübutlar aşkar olunaraq götürülüb.

Dəstə üzvlərinin törətdiyi cinayətin təhlili zamanı müəyyən edilib ki, onlar, əsasən, "qara bazar"da "şüşə" adı ilə tanınan kimyəvi yolla əldə edilən metamfetaminin və digər narkotik vasitələrin satışını həyata keçiriblər. Qeyd edək ki, metamfetamin ağ kristal maddədir və yüksək asılılıq yaratmaq potensialına malik psixostimulyatordu. Narkotikin təsiri bitdikdən sonra insanda dərin ruh və fiziki düşkünlük yaranır. Davamlı olaraq ondan istifadə edən şəxslər intensiv çəki itkisinə məruz qalırlar. Metamfetaminin davamlı olaraq qəbulu insan sağlamlığı üçün geri dönüşü olmayan nəticələrə və ən nəhayət ölümə səbəb olur.

Qeyd edək ki, "Baba" və "Orxan XX"nin rəhbərlik etdiyi mütəşəkkil cinayətkar dəstənin üzvləri barəsində Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Hazırda dəstə üzvləri barəsində Bakı Ağır Cinayətlər Məhkəməsində cinayət işi üzrə icraat davam etməkdədir.

**Bundan sonra Füzuli babasının silahlarının əldən çıxdığını gördüyündən, kustar üsulla əldəqayırma tüfənglər düzəltməyə başlayır. Bacısının sözlərinə görə, bu vaxtdan etibarən ermənilərin harda bir tikilisini görsə, gedib onu dağıdıb gəlirmiş. Bir sözlə, bu insanda vətənpərvərlik hissləri, namus, qeyrət təəssübü o dərəcədə güclü və tükənməz olub ki, onu bu yoldan nə həbsxana qorxusu, nə döyüş, nə yaralanmaq, hətta ölüm belə saxlaya bilmirmiş.**



# İgid ömrü

## *Anadangəlmə qəhrəman*

**(III yazı)**

### Bitib-tükənməyən Vətən sevgisi

Qarşıda döyüşçülərin, dostlarının dediklərini oxuyanda bunun əyani sübutlarının şahidlərinə çevriləcəksiniz. Hələliksə Fiqurə xanımla söhbətimizə davam edək.

**- Ermənilər sizinlə bərabər Xocalıda yaşamırdılar?**

- Xeyr, Xocalıda erməni yox idi. Ermənilər o ərazidə əvvəlcə ancaq Əsgəranda yaşayırdılar. Sonradan Həsənabad kəndini boşaltdılar, Həsənabada da yığıldılar.

**- Onda Füzuli ermənilərə divan tutmaq üçün başqa yaşayış məskənlərini seçirdi...**

- Əlbəttə. Məsələn, bizdən aralıda "Vosem-şestoy" deyilən yerdə ermənilər bir post qurmuşdular. Füzuli kəndlilərimizlə danışır ki, gedib o postu dağıdaq. Bunu onun dostları sizə daha yaxşı danışar. Nə isə. Gedib görürlər ki, bir budka qoyublar, o budkanı dağıdırlar, içində də nə varsa tökürlər çöllərə. Səs-küy düşüb, ermənilər də gəlib, o cümlədən bayaq dediyim rəis Ağacanyan da UAZ-la gəlib. Qardaşım da yaxşı idmançı idi, qaçış üzrə lap mahir idi. Girib şumluqla qaçıb ki, qoy mənim dalımca düşsünlər, uşaqları tuta bilməsinlər. UAZ-la onu tuta bilməmişdilər. Uşaqlardan ikisini tutmuşdular. Ondan sonra qardaşım dayanmışdı ki, onsuz da onlar məni satacaqlar. Əlində bıçaq var imiş, onlarsa əli tapançalı. Bununla belə, deyiblər əllərini qaldır, səni tutaq. Füzuli bıçağı da atıb demişdi hə, indi gəlin tutun. Yalnız bundan sonra qollarına qandal vurub aparmışdılar onu. Əsgəranda 7-8 gün o qədər döymüşdülər ki, bəlkə yoldaşlarının adını deyə. İnanın Allaha, o biri uşaqların heç birisini də satmamışdı. On beş gün Əsgəranda saxlayandan sonra Şuşaya göndərmişdilər. Şuşaya çatan kimi üz-gözü şişmiş, göyərmiş halda şəkil çəkdirmişdi. Demişdi ki, bu şəkli qoyun mənim şəxsi işimin içinə (təəssüf ki, Füzulinin nəinki üz-gözü şişmiş bu yaralı şəkli, bütün şəkilləri Xocalıda qalıb. Ona görə əldə olan, dostu Nazimin tapdığı yeganə şəklindən istifadə etməyə məcbur olublar bütün yazılarda, tədbirlərdə, hətta baş daşında da - N.Z. ).

**- Şuşada həbsdə yatırdı, yoxsa sadəcə istintaq üçün saxlanırdı?**

- Yox. İstintaq müddəti, həbsinə qədər Şuşada üç ay saxladılar. Biz də gedirdik yanına, yemək-filan aparırdıq. Şuşaya da getmək çətinləşmişdi o zamanlar. Bizi rus hərbçiləri müşayiət edirdi. Üç aydan sonra gətirdilər Əsgərana məhkəməyə. Biz də getdik. Hərbi məhkəmə aparırdı işi. Xalamla məni babamın bacısı oğlu apardı Əsgərana. Məhkəmədə ermənilər bir-bir gəlib keçirdi, bir söz soruşanda isə cavab verə bilmirdilər. Biz də sakitcə oturmuşuq. Nə isə, yığdılar bizi içəri. Zaminə altı ay iş verdilər. Gedib həbsxanada yatıb qayıtdı. Gələn kimi yenə də başladı ermənilərə qan uddurmağa.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.

Ürəyi qardaş itkisindən yaralı Fiqurə xanımı dinləməkdə davam edirəm. Uşaqlıqdan atasız-anasız qalmış, büsbütün kimsəsizliyi on doqquz yaşında yaşamış Fiqurə xanım dərindən köks ötürərək söyləyir ki, Füzuli yaralananda Qurban adlı xocalılı bir oğlan camaata tərəf ağlaya-ağlaya gələrək ermənilərin orda bir nəfəri vurduğunu deyir. Camaatdan kimsə ona cavab olaraq deyir orda bir nəfəri yox, çox adamı vurublar. Fiqurə xanıma tam danışdığına inansaq, hadisə belə baş verir: deməli, Füzuli görüb ki, qonşularının atası yaralanıb. Cabbar adlı dostu, o, İsrail, başqa kimlərləsə birlikdə həmin əraziyə doğru irəliləyirl[illegible]ə qədər xocalılını, o cü[illegible]n dayısı oğlanları Əkbəri, Şükürü də Füzuli çıxarır mühasirədən. Fiqurə xanımın sözlərində bir inciklik notunu da hiss edirəm bu anda. Onun sözlərinə görə, Füzulinin xilas etdiyi bu adamlardan həmin qohumları indi özlərini daha "ağıllı" hesab edərək, hətta "ağlı olsaydı ölməzdi" deməkdən belə çəkinməyənlər var. Tarixin ironiyasına bir fikir verin, əziz oxucular!!! Təəssüf ki, ürəyim bulanmasın deyə, Fiqurə xanım bu insanlardan heç birini mənimlə həmsöhbət olmaq üçün əlaqələndirmək istəmədi. Amma belələrinə nə ad vermək olar?!.. Bunları düşündükcə əsəbiləşən Fiqurə müəllimə qəribə bir küskün qənaətini bölüşür bizimlə: "Düz deyirlər yəqin. Görünür, ağıllı onlar imiş ki, salamat gəlib çıxa biliblər". Şəhidin - Milli Qəhrəmanın yadigarını belə küskün duruma salanlara nə ad verək, sizcə əziz oxucular, əziz azərbaycanlılar?!..

Fiqurə xanımdan onu da öyrənirəm ki, orta məktəb müəllimlərini də bu qan-qadanın içərisindən sağ-salamat çıxarıb Füzuli: "Burda məktəbdə bizimlə işləyən müəllim var, onun anası müəllimə də orda olub. Müəllimə deyib ki, ay Füzuli, başın bəlalıdı, çıx get, Zamin cavab verib ki, "yox, gedə bilmərəm, arvad-uşağı girov aparırlar!". Ayrı bir arvad olub Gülarə adında, o, eləcə də neçə nəfər qocalar deyiblər ki, a bala, çıx get də niyə qayıdırsan təkrar-təkrar? Amma bütün bu təkidlərə baxmayaraq, Zamin yenə də qayıtmayıb, gedib yollara səpələnmiş xocalılara bələdçilik etmək üçün. Bu minvalla nə qədər uşaq, qoca, qız-gəlin, yaralı keçirib, yaralıların yaralarını sarıyıb. Gedib ki, yenə adamları çıxartsın, bu dəfə yaralanıb. Lap yolun sonuna yaxın yerdəymiş. Ermənilər onu qaralayıbmışlar. Orda güclü atışma da olmayıb (bu, Füqurə xanımın dedikləridir. Qarşıda digər xocalılıların dilindən eşidəcəksiniz ki, insanların çoxunu məhz Qaraqaya deyilən həmin ərazidə güllələbaran ediblər. Bu çalpaşıq fikirləri anlamaq mümkündür. Buna səbəb həmin dəhşətli Xocalı qətliamı gecəsində hamının xaotik şəkildə qurtuluşa can atmalarıdır yəqin. Hər halda, nizamsız müharibənin yöndəmsiz qaydalarının nəticəsidir ki, Xocalı qətliamından 28 il ötməsinə baxmayaraq, bax belə çalpaşıq fikirlər, yanaşmalar bu gün də baş alıb gedir. Müharibəni müharibə qaydasında etməməyin acı nəticələrindəndir bu fakt - N.Z.). Amma nəyin bahasına olursa-olsun, Füzulini vurub öldürüb sıradan çıxarmaq istəyirmişlər. Orda da cəmisi beş-altı erməni olub. Əgər bizimkilər özlərini cəmləyib vuruşsaymışlar, həmin erməniləri məhv edərmişlər. Ancaq panika hamısını qaçmağa vadar eləyib. Avtomatları da qatlayıb gətirib burda satıblar. Füzuligilsə, dediyim kimi, yaralıları, qocaları, qız-gəlini çıxarmaqla məşğul olublar. Onun ölüm səhnəsindən çıxardığı adamlarla görüşüb danışanda o müdhiş mənzərə sizə tamamilə aydınlaşacaq. Sizə bunları şahidlər danışacaq. O yolda nələr baş verib? Bir UAZ yaxınlaşıb bunlara. İçində də sonradan Ermənistan prezidenti olmuş Robert Köçəryan. Füzuli deyib ki, gəlin bu UAZ-ın içindəkiləri güllələyək, yoxsa bunlar bizim başımıza belə olacaqlar. Bir arvad gətirib yaylığını atıb onun ayağının altına ki, vurmasın. Sən demə, maşının içərisi rabitə cihazları ilə dolu imiş. O maşındakılar geriyə qayıdıb xeyli azərbaycanlını qətlə yetirib. Yəni demək istəyirəm ki, çoxu qorxusundan meşədə güllə atmayıb. Görünür, elə erməni bu əraziyə çatanda qarovulladığı bircə qardaşım olub ki, o ermənilərə atıb, onlar da qayıdıb ona atıblar. Bizimkilər cavab atəşi açmayıblar, ancaq birtəhər canlarını götürüb qaçmağa üstünlük veriblər. Ona görə də beş-altı erməni düşüb camaatı qırıblar meşədə..."



### Yaralı Füzuli xalasını soraqlayır - anası əvəzi Səkinəni...

**- Füzulinin yaralanandan sonrakı son anlarını danışın...**

- Hə, Cabbar paltosunu çıxarıb. Qoyublar paltonun arasına. Endiriblər aşağı. Maşın gedib qabağına, gətiriblər Ağdam xəstəxanasına. Yarasından çoxlu qanı daxilə axıb. Üstəlik əməliyyat olunmalı imiş. Onda da xəstə çox, yaralı çox, çatdıra bilməyiblər, bax beləcə dünyasını dəyişib. Xəstəxanada kim yaxınlaşırmışsa ona, çətinliklə danışsa da, hamısından xalamızı soruşurmuş. Bizim ana əvəzi xalamızı (ağlayır). Bunların dəstəsi kəsə yolu tanıyırmış, ora ilə gəlib, xalam isə qonşularımızla başqa yolu gəlib. Əminəvəsi, başqa qohumlarla birgə. Bunlar dik yuxarı qalxıblar meşə ilə Ağdamın Gülablı kəndinin üstündəki Kətik kəndinin yaxınlığına, bura da çox qorxulu yol idi, amma birtəhər Kətik kəndindən enib gəlib çıxıblar Ağdam ərazilərinə. O yolda o qədər adam şəhid olub ki (yenidən kövrəlir). Amma mənim qardaşımgil gecə saat 12-1 radələrində Xocalıdan çıxıblar, ikibir-üçbir qabaqda postları yoxlaya-yoxlaya geri qayıdıb vəziyyəti təhlil edə-edə camaatı kəsə yolla gətirib çatdırıblar. Füzuli hələ bir neçə gün əvvəl də Ağdama gedib qayıtmışdı. Hətta burda dişi ağrıyıb, dişini də çəkdiribmiş. Əlində çemodan qayıdanda erməniyə çuğulluq (bu sözləri eşidəndə vaxtilə yazdığım "Çuğul" hekayəmin prototipləri yadıma düşdü. Sən demə, çuğul müharibə şəraitində güllə qabağında da, düşmən qabağında da, namus-qeyrət tapdalananda da - hər bir yerdə elə çuğul imiş. Zamanında bu faktı bilsəydim öz hekayəmə çuğulların "beynəlmiləlliyini" də əlavə edərdim - N.Z. ) edənlər xəbərləyib onu satıblar, ermənilər də ona atəş açmışdılar. Qayıdıb gələndə babamın qohumu Əşrəf dayıya deyib ki, getdim-gəldim, ancaq ermənilər duyuq düşüb atəş açdılar mənə, az qala düşmüşdüm tələyə. İndi yolu dəyişməliyəm. Əşrəf dayı deyir, madam belədisə daha getmə. Füzuli deyir nə danışırsız, mən buranın bələdçisiyəm, getməyə bilmərəm. Təzədən ayrı yolla gedib-gəlməyə başlayıb. Ona görə bu yolu da tanıdığından qabaqda gedib yoxlayıb qayıdırmış ki, görsün post qurublarmı ermənilər hardasa.

**- Pay-piyada...**

- Bəli, pay-piyada. Xocalı qətliamından bir neçə gün əvvəl, Xocalının daha duruş gətirə bilməyəcəyi, mühasirəyə salındığı bilinən günlərdə xalama deyib ki, gedəndə pəyədə (tövlə - N.Z.) saxladıqları mal-qaranı, qoyunu qabaqlarına salıb aparsınlar ki, birdən yollar minalanmış olsa heyvanlar düşsün minaya, bilsinlər. Əgər yol təmizdisə və ya heyvanın ayağı dəydikcə təmizlənərsə, sonra qayıdıb gəlib arvad-uşağı da həmin cığırla kəndin ayaq tərəfindən çıxarıb aparaq.

*(Ardı 15-ci səh.)*

(Əvvəli 14-cü səh.)

Özünün də, qonşusunun da çoxlu mal-qarası var idi pəyədə. Ancaq xalam bunu məsləhət bilməyib. Deyib sənin ki bu camaata, Qarabağa bu qədər köməkliyin dəyib, mal-qaranın arxasınca gedib minaya düşərsən, deyərlər ki, Füzuli malqaranı satmağa aparırmış. Nə vaxt camaat çıxacaq, biz də durub gedəcəyik. O da xalamı eşidib...

**Partladılan aeroport, qaçqınlara peşkəş olunan ermənilərin Mehdikənd ferması...**

**- Neçə yaşı vardı bu zaman Füzulinin?**

- 26 yaşı vardı. İnanın, elə bir gecə olmazdı ki, gedib bir ermənin evini dağıtmasın. Başlarına oyun açırdı ermənilərin. Mehdikənddə ferma var idi. Gediblər həmin fermaya. Görüblər fermanın müdiri işçiləri yığıb başına tövlənin bir tərəfində onlarla nədənsə danışır. Bunları məhv edib fermadakı 200 baş malı qabaqlarına qatıb gətirmişdilər. Bizim də heç nədən xəbərimiz yoxdu. Malı gətirib doldurublar babamgilin pəyəsinə, qonşunun pəyəsinə, özünün yarıtkili evinin altına. Səhər durmuşuq ki, bir mal mələrtisi var, dəhşət, gedib baxmışıq. Xalamı oyadıb ki, Xankəndidən gəlib fin evlərində yaşayan qaçqınlar acından qırılır, durun bu inəkləri sağın, südünü aparıb verək o qaçqınlara, onların balalarına. İndi fikir bizi götürüb ki, bu qədər mal-qaranı neyləyəcəyik? Füzuli dedi qatar boş vaqonlarla gəlir, bunları dolduraq içinə göndərək Ağdama.

Doldurub göndəriblər də sağmal heyvanları. Südü sağdırıb götürüb əlində aparıb fin evlərindəki qaçqınlara verib. Sonra gəlib malın içərisindəki cavan cöngələrdən, düyələrdən kəsib, aparıb əlində paylayıb o camaata. Onun sabahısı o fermada ölənlərin, mal-qaranın hayıfını çıxmaq üçün ermənilər Polyaniçkonun (Azərbaycan SSR Mərkəzi Komitəsinin ikinci katibi, Moskvanın Qarabağda xüsusi nümayəndəsi Polyaniçkodan söhbət gedir - N.Z.) sürücüsünün başını kəsdilər. Artıq yol bağlı idi. Ancaq Polyaniçkonun sürücüsü gedib-gəlirdi o yolu. Onu, xalasını, bir də bir ayrı xocalılı oğlanı öldürdülər. Sürücünü Ağdama çatdırsalar da, xilas etmək mümkün olmamışdı.

**- Xocalı aeroportunu partlatmasını necə xatırlayırsız?**

- Onun iştirakçısı İman adlı dostu var, sizi onunla əlaqələndirərəm, o daha yaxşı şahid kimi danışar sizə. Bu bir dəfə yazılır, hər saat yazılmır ki, qoy dəqiq və ətraflı olsun (qarşıda bu partlayışın təfərrüatlarını canlı şahid və partlayışın iştirakçısı olmuş İmanla söhbətimizdə dəqiq biləcəksiniz - N.Z.).

**- Təbii.**

- O, İman və Rövşən adlı oğlanlarla aeroportu partlatmağı planlaşdırır. Yığışıb məsləhətləşirlər. Füzuli deyir ki, bu işin öhdəsindən mən gələrəm. Deməli, Xocalı ilə aeroportun arası 3-4 kilometr olardı. Bu qədər yolu elektrik naqili çəkib oraya elektrik cərəyanı aparmışdılar. Oranı, çox güman ki, aminal-filan qoyub partladıblar. O zaman qranatomyot nə gəzirdi bizdə?! Elektriki çəkəndə yolu da xəndək atıb qazıblar ki, bununla səhərisi gün Xankəndidən uçmağa gələcək bir deputatın da gəlişinə mane ola bilsinlər. Deputatın gələcəyini Elman müəllim (o zaman Xocalının icra hakimiyyətinin başçısı, indi Xocalının deputatı - N.Z.) deyibmiş bunlara. O qədər yolu çəkib naqili, orda baxıb ki, partlamır, deməli naqil qoşulmayıb. Təzədən o boyda yolu qayıdıb gəlib görüb yox, qoşuludu. Ondan sonra axtarıb yolboyu naqilin qırılan nöqtəsini tapıb bərpa ediblər. Nəhayət aeroportu partladıblar. Təkcə bumu?!.. Sonra dəmiryolunu da partladıb. Stepanakertdə (Xankəndi) Darik-barikin heykəli vardı. Gedib onu partladıb. Bir gün gördüm ki, nə qədər gözəl-gözəl qələm-dəftəri gətirib hasarın dibində gizlədib. Deyirəm bu nədi? Dedi ki, Stepanakertdə bir budkanı dağıdıb gətirmişəm, ancaq evə aparmağa qorxuram, məni danlayacaqlar. Allaha and olsun, yadıma düşdükcə danışıram, bir də görürdün ki, camaatın malqarası adlayıb keçib ermənilər tərəfə, çoban özü gedib onu qaytarmağa ürək eləmirdi, Füzuli gedib gətirirdi. Bir dəfə çay daşmışdı. Malqara qalmışdı yenə ermənilər tərəfdə. Qonşunun atını alıb minir, çayı üzdürə-üzdürə keçir o biri tərəfə. Atın sahibi danışırdı ki, selin bərk axdığı yerdən keçəndə buna baxmağa ürək eləmədim, pencəyimi tutdum gözümün qabağına ki, görməyim heç olmasa. Amma keçib mal-qaranı haylayıb gətirdi. Bir gün də yenə mal keçib ermənilər tərəfə. Biz də dəmiryolunun üstündən baxırıq. Füzuli adladı ora. Ermənilər də orda ot çalırdılar. 5-6 erməni idi. Gördük ki, yaxınlaşdı onlara. Ürəyimizi yedik ki, bəlkə bu ermənilərin üstündə silah da var, bunu vurarlar. Getdi onlarla nə danışdısa, qayıtdı gəldi. Xalam bunu danladı ki, onlara niyə yaxınlaşmışdın? Dedi, ermənilər mənə istehza ilə dedilər ki, tork ("türk" deyə istehza edirmişlər - N.Z.) ayranımız var, ayran içərsən? Dedim ki, qorxmuram içərəm. Yaxınlaşdım aldım iki stəkan içdim. Xalam dedi, bəs demədin səni zəhərləyərlər? Dedi onlar nə bilirdi ki, mən ora gələcəm, qabaqcadan zəhər tədarükü görsünlər? Qayıdıb gəlsəydim, deyərdilər bizdən qorxdu.

Əsl həqiqətdə də ermənilər ondan çox qorxurdular. Bir il gedib onlar tərəfdə, meşədə ot çalmışdı. Gəldi dayım oğlanlarına dedi ki, gedək sizin yük maşınınızla o otu yükləyib gətirək. Onlar dedilər qorxuruq getməyə. İnanın ki, həmin otu atın belinə yükləyib hissə-hissə neçə dəfəyə daşıyıb gətirdi təkbaşına. Belə oğul idi Füzuli. Heç nədən çəkinməzdi. Bu da bir növ qandan-gendən gəlirdi. Mənim həm dediyim Kərim babam qoçaq adam kimi tanınırdı, həm də Naxçıvandakı babam. Naxçıvandakı babama da "quş Məhəmməd" deyirmişlər. Niyə belə deyirmişlər? O zamanlar maşın az olurmuş. Olanlar da hündür banlı maşınlar. Maşına əl qaldırırmış, saxlamadı, daha gözləmirmiş, hoppanıb şütüyən maşına minirmiş. Düşəndəsə özünü sürücüyə göstərmək üçün qabaqdan düşürmüş ki, yəni sən saxlamasan da mən minmişəm. Yəni bir daha demək istəyirəm ki, onun genində var idi bu əlamətlər. Bir dəfə yubileyində Elman müəllim dedi ki, Füzuliyə deməyə ehtiyac yox idi bunu elə, onu elə, ya bu işi belə elə, o özü hər şeyə hazır idi. O, anadangəlmə qəhrəman idi.

***Nəzirməmməd ZÖHRABLI***
***Jurnalist-publisist***

# Problemlər məngənəsində olan məkan - Lerikin Vov kəndi...

**Ölkə başçısının diqqət və qayğısı sayəsində respublikamızın bütün bölgələri inkişaf edir, insanların sosial-rifah səviyyəsi durmadan yaxşılaşır. Sözün əsl mənasında xalq öz tərəqqi dövrünü yaşayır.**

Lakin bu tərəqqinin, sanki dağ rayonu olan Lerikə o qədər də dəxli yoxdur. Əksinə, baxımsızlıq üzündən rayonda boşalan kəndlər yetərincədir. SSRİ dağılandan sonra ağlar günlərə qalmış, artıq varlığı kağız üzərində olan belə yaşayış məntəqələrindən biri də rayonun Vov kəndidir. Vov yerli-dibli rayon rəhbərləri tərəfindən unudulub. Azərbaycanda əhalinin rahatlığı üçün bütün işlər görüldüyü halda, Vov kəndinin nə abadlığına fikir verən var, nə də sosial problemlərin həllinə. Məhz bunun nəticəsidir ki, kənddə qapısına qıfıl asılan evlərin sayı bilinmir.

Bütün sahələr bərbad olduğuna görə Vovda insan amili iflıc vəziyyətindədir. İlin çox hissəsi burada işıq olmur. Kəndin qaz məsələsi ildən-ilə yubadılır. Yollarda batıb qalmaq vovlular üçün adi haldır. Sovet vaxtı olan sosial-mədəni əhəmiyyətli obyektlər dağılaraq istifadəyə yararsız hala düşüb. Bankomatların yoxluğu üzündən kəndin yaşlı adamları pensiyalardan vaxtında istifadə edə bilmir. Dövlətin ünvanlı sosial yardımı isə, bir çox hallarda, sadəcə məmurlara əlavə gəlir yeridir. Ümumiyyətlə, buranın vətəndaşları sadə həyat yaşamaq üçün belə zəruri ehtiyacların təmin olunmasından məhrumdur. Lakin bütün bunlar bir yana qalsın, vovlular üçün ən ağır məsələ kənddən rayon mərkəzinə getməkdir. Çünki bu dağ kəndinə heç bir tərəfdən ictimai nəqliyyat işləmir. Onu da bildirim ki, Lerik şəhərindən rayonun kənlərinə avtobus marşrutu yoxdur. Bu da dünyada analoqu olmayan bir hadisədir. O üzdən Vov camaatı da, başqa lerikli kəndli lər kimi, vacib bir işdən ötrü mərkəzə gedib-gəlməkdə çətinlik çəkir.

Ölkə rəhbəri deyir ki, Azərbaycan dövləti sosial dövlətdir, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı durur. Görünür, Prezidentin bu fikri Lerikin səlahiyyət sahiblərinin qulağına hələ çatmayıb. Yoxsa vovluların ən azı ictimai nəqliyyat problemi yoluna qoyulardı. Axı, sovet vaxtı buraya avtobus işləyirdi...

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# "Visa" Azərbaycanda çaypulunun nağdsız köçürmələri xidmətini istifadəyə verməyi planlaşdırır

**"Visa" Beynəlxalq ödəmə sistemi Azərbaycanda çaypulunun nağdsız köçürmələri xidmətini istifadəyə verməyi planlaşdırır. Bu barədə "Visa"nın müştəri məhsulları departamentinin direktoru Roman Qorbenko məlumat verib.**




"Bu xidmət hesabına "Visa" kartlarının istifadəçiləri sifarişin ödənişi zamanı çaypulu saxlaya biləcəklər. Ümumi ödəniş (hesab+çay pulu - İF) bir ödənişlə hesabdan çıxılır. Xidmət artıq Moskvada işə salınıb, biz bunu bütün MDB və Cənub-Şərqi Avropa regionu, xüsusilə Azərbaycada istifadəyə verməyi planlaşdırırıq", - Qorbenko Bakıda keçirilən "VISA Cashless Forum"un da bildirib.

Qorbenkonun sözlərinə görə, çaypulu ofisiantın şəxsi elektron cuzdanına yönəldilir. "Çaypulunu nadsız üsulla əldə etmək üçün ofisiantlar öz banklarının şəxsi kabinetlərində "çaypulu"xidmətinə qoşula bilərlər və yaradılan elektron cuzdana öz bank kartlarını birləşdirə bilərlər.

**Bu xidmətdən istifadə zamanı dələduzluğun istisna olunması məqsədilə çaypulunu yalnız sifarişin məbləğindən müəyyən faiz şəklində saxlamaq mümkündür, müştəri terminalda təkliflərdən birini seçir, maksimal həd 20%-dir ", - o əlavə edib.**

## Azərbaycanda nümunəvi pilot dönərxanalar...

**Azərbaycanda bütün sanitar gigiyenik göstəriciləri beynəlxalq standartlara uyğun şəkildə özündə əks etdirən nümunəvi pilot dönərxanalar yaradılacaq. "Trend"-in məlumatına görə, bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli fevralın 13-də keçirdiyi mətbuat konfransında deyib.**

Onun sözlərinə görə, Azərbaycanda Qida Təhlükəsizliyi İnstitunun nəzdində "Süfrə" MMC yaradılacaq: "Həmin qurumun əsas rolu ondan ibarətdir ki, onlar qida təhlükəsizliyi standartlarını özündə əks etdirən pilot layihələri tətbiq edəcəklər. Belə pilot layihələrdən biri də minimum keyfiyyət təhlükəsizliyi tələblərini özündə əks etdirən dönərxanaların yaradılmasıdır. Təxminən 7 kvadrat metrlik sahəni əhatə edən, amma bütün sanitar-gigiyenik göstəriciləri beynəlxalq standartlara uyğun şəkildə özündə əks etdirən dönərxana yaradılacaq. Dönər fəaliyyəti ilə məşğul olan minlərlə kiçik və orta sahibkarlıq subyektlərinə müraciət edəcəyik ki, onlar bu layihədə iştirak etsinlər. Bunun da əsas məqsədi ondan ibarətdir ki, Azərbaycanın müxtəlif regionlarındakı dönərxanalar arasından seçimlər edəcəyik".

Q.Təhməzli əlavə edib ki, dönərxanalar püşkatma yolu ilə seçiləcək. Qida Təhlükəsizliyi İnstitutu tərəfindən bütün bu işlər pulsuz həyata keçiriləcək.

Agentlik sədrinin sözlərinə əsasən, ilkin olaraq kiçik ölçülü, modul tipli heyvan kəsimi ilə bağlı məntəqələr yaradılacaq. Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının verdiyi tövsiyələrə əsasən, həmin məntəqələr üçün qoyulan minimal tələblər AQTA-nın ekspertləri tərəfindən müəyyənləşdirilir.

Q.Təhməzli qeyd edib ki, agentlik 39 rayonda 40 kəsim məntəqəsi yaradacaq. Hazırda həmin məntəqələrin quraşdırıla biləcəyi yerlər müəyyənləşdirilir.

Heyvan kəsimi məntəqələrində də Qida Təhlükəsizliyi İnstitutu tərəfindən bütün fəaliyyətlər pulsuz həyata keçiriləcək:"Biz bunu ona görə xüsusi qeyd edirik ki, sonradan bu məsələyə narazılıq edə bilən insanlar bu layihənin hər hansı məqsədlərə söykəndiyini iddia etməsinlər. Bu sırf qida təhlükəsizliyinin təmin olunmasına yönəlib".

№ 27 (4158) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

14 FEVRAL 2020-ci il

www.baki-xeber.com



# Misirdə 80-dən çox qədim məzar tapıldı

**Misir arxeoloji qrupu ölkənin şimalında Dakahliya vilayətində yerləşən Umm əl-Xaljan rayonunda qazıntılar zamanı 83 qədim məzarlıq tapıb.**

"Trend" bildirir ki, bu barədə ölkənin Tarixi Abidələr Nazirliyi bildirib. Qeyd edilib ki, aşkar edilmiş məzarlıqların 80-ni eramızdan əvvəl dördüncü minilliyin birinci yarısına aiddir. Bildirilib ki, bu məzarlıqlar oval çuxurlar şəklində düzəldilmiş, onların içərisində gil tabutlar və müxtəlif əşyalar tapılmışdır.

Əlavə olunub ki, ərazidə gildən hazırlanmış tabutların olduğu daha çox qəbirlərin tapılmasını da gözləmək olar.



# Qan nümunəsi götürmək üçün tibbi robot təqdim olunub

**Ratqers Universiteti və Maunt-Sinay Tibb Kompleksi Universitetinin tədqiqatçıları tərəfindən hazırlanmış robot dərini skan edir və vena damarlarını insanlardan daha yaxşı tapır.**

Bu, xəstələrdən qan nümunəsi götürərkən infeksiya və tromboz riskini azalda bilər. "İctnews.az" bildirir ki, tibb personalı əllərində vena damarları görsənməyən xəstələrlə tez-tez qarşılaşırlar. Belə olan halda, qan nümunəsi götürmək üçün vena damarlarını aşkar etməyə imkan verən ultrasəs aparatından istifadə olunur. Ancaq ultrasəs aparatından istifadə olunan hallarda belə bəzən ilk dəfədən vena damarına düşmək olmur. Qan nümunəsi götürmək üçün xüsusi robot iynəni idarə etmək üçün daxili ultrasəs texnologiyasından istifadə edir. Araşdırma nəticəsində məlum olub ki, robot 87% halda vena damarları zəif görünən xəstələrdən ilk dəfədən qan nümunəsi götürməyə müvəffəq olub. Tədqiqatda 31 nəfər iştirak edib. Müqayisə üçün, tibb personalı 27%-60% halda ilk dəfədən qan nümunəsi götürməyə müvəffəq olmur.

## Elan

Tağıyeva Məhbubə Əli qızının adına, Xızı rayonunda yerləşən torpaq sahəsinə verilmiş torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 738 H kod 30600001) itdiyi üçün etibarsız sayılır.

Nağıyev Rahid Qəzənfər oğlunun adına, Bakı şəhəri, Novxanı kəndində yerləşən torpaq sahəsinə verilmiş şəhadətnamə (JN 929 A) itdiyi üçün etibarsız sayılır.

Əliyev Şahin Bəndalı oğlunun adına, Ağdam rayonu, Mahrızlı kəndində yerləşən 0.17 hektar torpağın mülkiyyətə verilməsinə dair JN 267 A kod 60909058 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Cəfərxanova Təravət Cəlal qızının adına, Abşeron rayonu, Xırdalan qəsəbəsi, 27-ci məhəllə küçəsində ev N13a, mənzil 18 ünvanının qeydiyyat vəsiqəsi (kupça) itdiyi üçün etibarsız sayılır.

Ələkbərova Tamilla Faiq qızının adına, Bakı şəhəri, Xəzər rayonu, Şağan qəsəbəsi, M.Cəbrayılov küçəsi, ev 2 ünvanının seriya RX 1124335 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.

Əzimov Elvin Tərlan oğlunun adına, Abşeron rayonu, Aşağı Güzdək qəsəbəsində yerləşən 425 kv. m. torpağın 1615026312 nömrəli çıxarışı və 042425 nömrəli plan və ölçüsü itdiyi üçün etibarsız sayılır.

# ”Azercell”dən ”Biznesim Wi-Fi” təklifləri ilə biznesinizi daha rahat idarə edin!

*”Azercell Biznes” müəssisələrə sürətli və etibarlı rabitə həlləri təklif etməklə onların rəqəmsal dünyada uğur qazanmasına dəstək olur*

**Öz müştərilərinin rəqəmsal transformasiyasını dəstəkləyən "Azercell Biznes" böyük məmnuniyyətlə fevralın 13-dən etibarən yeni "Biznesim W-Fi" təklifini təqdim edir. Artıq korporativ abunəçilər daha əlverişli rabitə dəstəyilə Wi-Fi USB və ya Mi-Fi modemlərdən istifadə edə biləcəklər.**

"Biznesim Wi-Fi" təkliflərinin köməyilə korporativ abunəçilər fiziki bağlantı olmayan istənilən yerdən rahatlıqla internetə qoşulmaqla yanaşı, 10-a qədər cihaz arasında interneti paylaşdırmaq imkanına da sahib olacaqlar. İstifadəçilərin fərqli tələblərinə əsaslanan müxtəlif həcmli və bir paketdən digərinə keçid imkanına malik data paketlərdən ibarət xüsusi təklif kiçik, orta və fərdi müəssisələr üçün ideal bir həll vəd edir.

Təqdim olunan yeni təklifin əsas üstünlüyü ondan ibarətdir ki, internet paketlərindən birini seçməklə abunəçi ilkin ödəniş etmədən cihazı pulsuz əldə edir. Wi-Fi USB modemi USB portu vasitəsilə işə salınır, Mi-Fi cihazı isə heç bir cihaz və ya porta qoşulmadan müstəqil şəkildə işləyə bilər. Təkliflərin daha bir üstün cəhəti növbəti 12 ay ərzində paketi digəri ilə dəyişmək imkanıdır.

"Biznesim Wi-Fi" təklifinin qiyməti 20 manatdan başlayaraq həcmi 200 GB-a qədər olan müxtəlif internet paketlərini əhatə edir.

"Biznesim Wi-Fi" təklifi də daxil olmaqla müxtəlif biznes müəssisələri üçün geniş çeşidli məhsullar və həlləri təklif edən "Azercell Biznes" bir daha özünü etibarlı rəqəmsal biznes tərəfdaşı kimi təsdiq etmiş olur.

Korporativ abunəçilər business@azercell.com e-mail ünvanına müraciətlərini göndərməklə, "Azercell"in yaratdığı bu fürsətdən yararlana bilər. Yeni xidmət haqqında daha ətraflı məlumat üçün: https://www.azercell.com/az/corporate/

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Maraqlı ünsiyyət vəd edən gündür. Dəvət aldığınız toplantı və tədbirlərə qatılın. Günlə bağlı xüsusi planlarınız varsa, mütləq yerinə yetirin. Bir qədər əvvəl başladığınız işləri başa vurun.



**Buğa** - İntuisiyanıza güvənin. Rasional olmayan addımlar, münasibətlərdəki kompromislər problemlərinizin həllinə radikal təsir edə bilər. Bacarıq və məziyyətləriniz danışıqlar prosesinə təsir edə bilər.



**Əkizlər** - Yeniliklər və eksperimentlər zamanı deyil. Günün ikinci yarısında maliyyə məsələlərindəki qeyri-müəyyənlik səhhətinizə təsir edə bilər. Tam bələd və ya əmin olmadığınız mövzunu inkişaf etdirməkdən çəkinin.



**Xərçəng** - Perspektivlərlə prioritetləri müəyyənləşdirin. Qeyri-müəyyənlik nə qədər çox olarsa, siz bir o qədər iradəli və qətiyyətli davranmalısınız. Günün ikinci yarısında ötənlərdə unutduğunuz ideya və ya insanı xatırlaya bilərsiniz.



**Şir** - Mühafizəkar mövqeyə meylli olun, ehtiyatlı davranın. Lakin az sonra işlərə novator yanaşmanı nümayiş etdirin. Geridə qalanlar arasında olmaq istəmirsinizsə, eksperimentlərə əl atın.



**Qız** - Qarşılıqlı anlaşma əldə edin. İşlərdən biri nəzərdə tutduğunuzdan artıq səy və diqqət tələb edir. Şəraitin diqtə etdiyi seçim yeni, maraqlı yola çıxara bilər. Axşam saatlarında normal istirahət edin.



**Tərəzi** - Güclü marağınıza, nigaranlığınıza və ya tələsinizə səbəb ola biləcək hadisə baş verə bilər. Cavab verməyə tələsməyin. Vəziyyətin aydınlaşmasını gözləyin. Baş verənlər təsadüf deyil.



**Əqrəb** - İnsanların sözləriniz və hərəkətlərinizə reaksiyasına diqqətlə fikir verin. Mənfiliyə köklənməyin. Qəfil xəbər hissiyyatınızı artıra bilər. Cavab reaksiyasında tələskənliyə yol verməyin.



**Oxatan** - Əlverişli və münasib gündür. Səbirsiz, kəmhövsələ olmayın. Kiçik və xırda məsələləri şişirtməyin. Ciddi məsələni həll edərkən konstruktiv dəyişikliklərdə sizə dəstək ola biləcək insanlara dəyər verin.



**Oğlaq** - Tərəfdaşla səmimi olun, kimsəni aldatmayın. Günün ikinci yarısında səhvləri sürətlə aradan qaldırın. Sizdən yardım istəyən insana kömək edin. Şəxsi işlərin həllinə vaxt çatmaya bilər.



**Dolça** - Ötən günlərin gərginliyini aradan qaldırmaq üçün fəal sürətdə çalışın. Uzunmüddətli və monoton səylər tələb etməyən işlərə tez başlayaraq, tez də başa vurun. Görüş və ya əyləncəni təxirə salın.



**Balıqlar** - Günün əksər hissəsi kursu bilinməyən dövrdür. Mühüm işləri təxirə salın. İşgüzarlıq lazımi səviyyədə olmalıdır. Günün ikinci yarısında yaxın ətrafınızdakı insanlarla münasibətlərdə stress və sürprizlər olacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

# 3D printerdə yarış avtomobilləri çap olunur

**Mühəndislər "Cupra Leon Competicion" yarış avtomobilinin detallarını 3D printerdə çap etməyə başlayıblar. Mütəxəssislərin fikrincə, bu yenilik istehsalda pula qənaət edəcək.**

Onlar avtomobil üçün arxa görünüşlü güzgü korpuslarını, mərkəzi sükan idarəetmə modulunun, kapotun hava giriş dəliyi, radiator barmaqlığını, eləcə də, əyləc soyutma sistemlərinin giriş borularının və əsas soyutma sisteminin necə qurulacağını öyrəniblər. Detallar "HP Jet Fusion 5200" sənaye printerində çap olunur. Bunun sayəsində detalların lazımlı elementlərinin yaradılması prosesi sürətlənir. Bundan əlavə, sınaqlar zamanı ayrı-ayrı hissələrin konfiqurasiyasını dəyişdirmək mümkündür. 3D printerdə çap edilmiş komponentləri olan "Cupra Leon Competicion" avtomobili Portuqaliyanın Portimao yolunda sınaqdan keçirilib. Detalların istehsalının bu kimi üsulunun üstünlükləri aşkar olub.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.